**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*Əlyazması hüququnda*

**SÜBHAN FƏRMAYIL oğlu ƏLİYEV**

# İNSAN HÜQUQLARI SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARININ REALİZƏSİNİN DÖVLƏTDAXİLİ TƏMİNAT MEXANİZMLƏRİ

İxtisas: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"

**Hüquq üzrə elmlər doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

**Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmişdir.**

| | |
|---|---|
| **Elmi məsləhətçi:** | Hüquq üzrə elmlər doktoru, professor<br>**Əmir İbrahim oğlu Əliyev** |
| **Rəsmi opponentlər:** | Hüquq üzrə elmlər doktoru, professor<br>**Oqtay Firidun oğlu Əfəndiyev**<br><br>Hüquq üzrə elmlər doktoru, professor<br>**İbrahim Oruc oğlu Quliyev**<br><br>Hüquq üzrə elmlər doktoru, professor<br>**Aytən İnqlab qızı Mustafazadə** |
| **Aparıcı təşkilat**: | **Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının "Konstitusiya və inzibati hüquq" kafedrası** |

Dissertasiya işinin müdafiəsi "___" "__________" 2018-ci il tarixdə saat "_____" Bakı Dövlət Universiteti nəzdində təşkil edilmiş B/D.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "__________" 2018-ci il tarixdə göndərilmişdir.

**B/D.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru, dosent: Ə.Q.MƏMMƏDOV**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Müasir dünyamızda ictimai, iqtisadi, hüquqi, mədəni və s. sahələrdə baş verən qlobal dəyişikliklər dövlətlərarası münasibətlərin inkişaf tempini dəyişmişdir. Belə münasibətlərin inkişafı isə milli və beynəlxalq hüquq normalarının qarşılıqlı şəkildə fəaliyyət göstərməsi zərurətini üzə çıxarmışdır. Son on ildə iqtisadi, nəqliyyat, informasiya münasibətlərinin universallaşması, qlobal ekoloji problemlər, miqrasiya proseslərinin kütləviləşməsi beynəlxalq və dövlətdaxili hüququn yaxınlaşması tendensiyasının obyektiv əsaslarıdır. Azərbaycan Respublikasının (AR) beynəlxalq iqtisadi münasibətlərdə nüfuzunun artması, yeni transmilli layihələrdə fəal iştirakı fonunda dövlətdaxili və beynəlxalq hüquq normalarının əlaqəsi problemi bir qədər də aktuallaşmışdır.

Hazırda dövlətlərarası əlaqələrin nizama salınmasında beynəlxalq və dövlətdaxili hüququn yaxınlaşması problemi beynəlxalq hüquq normalarının dövlətlərin milli hüququ ilə razılaşdırılmış şəkildə realizəsi zərurətini meydana çıxarmaqla mürəkkəb nəzəri və praktiki problemlər yaratmışdır. Bu tip problemlərin səmərəli şəkildə həlli beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsinin gələcək inkişafında həlledici meyardır.

Beynəlxalq hüquq elmində beynəlxalq normaların realizəsi istiqamətində milli hüququn əhəmiyyətli rolu daim vurğulanmışdır. Beynəlxalq hüquq elminin dahilərindən hesab edilən Antonio Kassese qeyd edir ki, hər bir milli hüquq sistemi beynəlxalq hüquq normalarının realizəsi üzrə özünün mexanizm və prosedurlarına malikdir. Onu da qeyd edək ki, beynəlxalq hüquqi normaların bilavasitə tətbiqi ilə bağlı problemlər kifayət qədər ətraflı tədqiq edilməmişdir. Bu məsələnin tədqiqi adətən beynəlxalq və milli hüququn əlaqəsinin ümumi problemləri konteksti ilə məhdudlaşmışdır. Azərbaycanın hüquq elmində beynəlxalq hüquqi normaların tətbiqi, müvafiq sferada qabaqcıl ölkələrin təcrübəsinin təhlili və zəruri tövsiyə və təkliflərin irəli sürülməsi üzrə kompleks araşdırmaların məhdudluğu açıq-aydın şəkildə özünü göstərir. Ölkəmizin siyasi, hüquqi, iqtisadi və mədəni həyatındakı mövcud dəyişikliklərlə əlaqədar göstərilən problemlərin həlli xüsusi aktuallıq kəsb edir.

AR Konstitusiyasında, müxtəlif məcəllələrdə və qanunvericilik aktlarında beynəlxalq hüquq normalarının milli hüquq normaları ilə əlaqəsinə dair ümumi göstərişlər təsbit edilsə də, bu kifayət etmir, çünki həmin göstərişlərin realizəsi üçün müvafiq normativ və institusional

vasitələrin yaradılması aktual olaraq qalır. Beynəlxalq və dövlətdaxili hüququn əlaqəsini müəyyənləşdirən AR Konstitusiyasının 148 və 151-ci maddələri həm beynəlxalq, həmçinin milli hüquq mütəxəssisləri arasındakı çoxsaylı diskussiyaları bir qədər də artırmışdır. Bununla əlaqədar olaraq, hazırkı tədqiqat işi beynəlxalq hüquqi və dövlətdaxili normaların razılaşdırılmış əlaqəsinin əsas parametrlərini müəyyən etməyə yönəlmişdir.

Bu gün AR həm iqtisadi, həm də hüquqi sferalarda Avropaya inteqrasiyasını davam etdirir. Ölkəmizin Avropaya inteqrasiyasında ən aktual və zaman-zaman ciddi dəyişikliklər tələb edən problemlərindən biri insan hüquqlarının realizəsi məsələsidir. Məsələnin digər bir tərəfi ondan ibarətdir ki, Azərbaycan demokratik dəyərlərə, hüququn aliliyinə, insan kapitalının üstünlüyünə, vətəndaşlara xidmətin prioritetliyinə əsaslanan dövlət quruculuğu tendensiyalarına üstünlük verir. Bütün bunların əsasında isə insan hüquqları priblemi dayanır.

AR hüquq sistemi də yuxarıda qeyd etdiyimiz məsələdən yan keçməmişdir. Milli qanunvericiliyimizdə insan hüquqları sahəsində beynəlxalq hüquqi normaların realizəsi üzrə bir sıra göstərişlər mövcuddur, lakin təcrübə, reallıq başqa fikirlər söyləməyə əsas verir. Ölkəmizin Avropa Şurasına üzv olması ilə qanunvericiliyimizin və hüquq tətbiqi praktikasının Avropa standartlarına uyğunlaşdırılması məsələsi ortaya çıxmışdır. Bu sahədə müəyyən zəruri işlər artıq həyata keçirilmişdir, lakin problemlər qalmaqdadır, bunun əsas səbəbi Avropa standartlarının qəbul edilməsi zamanı dövlətdaxili qanunvericiliyin, milli hüququn tələblərinin nəzərə alınmaması amilidir.

Bu səbəbdən insan hüquqlarının müdafiəsi üzrə milli qanunvericiliyin təkmilləşdirilməsi, onun beynəlxalq, xüsusilə də Avropa standartlarına uyğunlaşdırılması və insan hüquqları üzrə beynəlxalq standartların düzgün realizəsi istiqamətində kompleks elmi araşdırmanın aparılması həm aktual, həm də əhəmiyyətli məsələdir.

Zəngin hüquq tarixi və təcrübəsinə malik ölkələrdə beynəlxalq və dövlətdaxili hüququn əlaqəsi, xüsusilə də insan hüquqları sferasında mövcud problemlərin həlli uzunmüddətli, geniş və müqayisəli elmi-konseptual araşdırmalar tələb etmişdir. Azərbaycanda müvafiq elmi araşdırmalar artıq başlamışdır, lakin bu sahədə hələ kifayət qədər görüləsi işlər var. Milli hüquq doktrinamızda belə məsələlərə kompleks yanaşmalar demək olar ki, həyata keçirilmir, yalnız sahəvi elmi araşdırmalar üstünlük təşkil edir. Hesab edirik ki, kompleks elmi-tədqiqat həm qanunvericiliyin zənginləşməsinə, həmçinin zamanın tələblərinin, mövcud reallıqların nəzərə alınmasında zəruri şərtdir. Bununla əlaqədar olaraq, qeyd edək ki, milli qanunvericiliyin təkmilliyi,

bütövlüyü, aydınlığı beynəlxalq hüquqi normaların effektiv şəkildə realizəsində həlledici şərtdir.

Mövzunun aktuallığını göstərən səbəblərdən biri cəmiyyətdə baş verən dinamik münasibətlərə qarşı adekvat tənzimetmə mexanizmlərinin hazır olması zərurətidir. Yəni, iqtisadi, siyasi, hüquqi və mədəni münasibətlər dərinləşdikcə onu tənzimləməli olan hüquq da təkmilləşməlidir. Respublikamızda insan hüquqlarının müdafiəsi ilə bağlı məsələlər Konstitusiya, məcəllələr, qanunlar, fərmanlar və digər normativ hüquqi aktlarla nizamlanır. Lakin bu aktlar zamanın tələblərinə, günün reallıqlarına uyğunlaşdırılmalıdır.

AR müasir beynəlxalq aləmdə iqtisadi inkişafı, böyük miqyaslı iqtisadi layihələrin fəal iştirakçısı, nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edən, siyasi və iqtisadi sabitliyi ilə seçilən ölkə kimi qəbul edilir. Bütün bunlarla yanaşı, qanunun aliliyi, hüquqi dövlət quruculuğu və ən əsası da insan hüquqlarının müdafiəsi məsələsi daim diqqət mərkəzində olan məsələdir. Nəzərə alsaq ki, müasir Azərbaycan cəmiyyətində insanların dünyaya baxış tərzi, sərbəst şəkildə informasiya əldə etməsi, öz fikrini ifadə etməsi və s. imkanları cəmiyyətdə insanlar arasında münasibətlərdə də dəyişikliklər doğurur. Nəticə etibarilə insanların tələbatları, hüquq və maraqları da dəyişir, belə olduqda yeni, daha təkmil tənzimetmə mexanizmlərinin işlənib hazırlanlası qaçılmazdır.

Qeyd etdiyimiz məsələlər insan hüquqlarının daha effektiv şəkildə təmin edilməsi şəraitində realdır. Ədəbiyyatda haqlı olaraq qeyd edilir ki, əgər söhbət insan hüquqlarının müdafiəsindən, bu sahədə beynəlxalq əməkdaşlıqdan gedirsə, onda beynəlxalq və milli (dövlətdaxili) hüququn, insan hüquqları üzrə beynəlxalq standartların və dövlətlərin daxili səlahiyyətlərinin qarşılıqlı əlaqəsi problemləri ortaya çıxır. Bu problemlərin xarakteri həmişə dinamikdir.

Ümumiyyətlə, insan hüquq və azadlıqlarının müdafiəsi həm beynəlxalq, həm də dövlətdaxili hüququn tənzimetmə obyektinə daxildir. Lakin, digər hüquq sahələri ilə müqayisədə insan hüquqlarının müdafiəsi məsələsində beynəlxalq hüquq normaları prioritetə malikdir. Bütün humanitar dəyərlər arasında insan və vətəndaşların hüquq və azadlıqları mərkəzi yer tutmaqla digər dəyərlər üzərində aşkar üstünlüyə malikdir. Onların təyinatı aşkar, əhəmiyyəti isə mübahisəsizdir. İnsan hüquq və azadlıqlarının müdafiəsi bir çox dövlət proqramlarının, sosial islahatların, təsisatların əsas məqsədidir.

Müasir dövrdə dövlətlər arasında iqtisadi, siyasi, sosial səviyyələrin müxtəlifliyinə baxmayaraq bütün dövlətlər insan hüquqları prinsiplərinə

sadiqliyini bəyan edir. İnsan hüquqlarının qorunması və təmini üçün səmərəli addımlardan biri də insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq mexanizmlərin təsis edilməsidir. İnsan hüquqlarının müdafiəsi, bu sahədə beynəlxalq əməkdaşlıq, beynəlxalq və milli hüququn, insan hüquqları üzrə beynəlxalq standartların və dövlətlərin daxili qanunvericiliyinin qarşılıqlı əlaqəsi müasir hüququn aktual problemlərindəndir.

İnsan hüquqlarının müdafiəsinin beynəlxalq-hüquqi əsaslarını insan hüquqlarının müdafiəsi sahəsində fundamental sənədlər olan 1948-ci il tarixli İnsan hüquqları haqqında Ümumi Bəyannamə, 1950-ci il tarixli İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası, 1966-cı il tarixli Beynəlxalq Paktları təşkil edir.

İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi probleminin nəzəri bazası təbii hüquq nəzəriyyəsinə söykənir, yəni ilkin olaraq siyasi-hüquqi baxışlar kimi meydana çıxmış hüquqlar zaman keçdikcə insanların təbii hüquq və azadlıqlarına çevrilmişdir. Insan hüquqları fərdlərin beynəlxalq hüquqi mexanizm və metodlarla qarantiyaya alınmış qanuni hüquq və azadlıqlarıdır, həmin hüquqlar fərdin fundamental xarakterinin qorunamasına, müharibə və dinc dövrdə onun layiqli həyat səviyyəsinin təmin edilməsinə yönəlmişdir.

İnsan hüquqları sahəsində beynəlxalq hüquqi normaların realizəsi konstitusiya ilə yanaşı, ölkə başçısının qərarlarında da öz təsbitini tapmışdır. İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi istiqamətində Prezidentin qəbul etdiyi aktlardan biri AR Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı qanunvericiliyin təkmilləşdirilməsi, insan hüquqları sferasında beynəlxalq qurumlarla əməkdaşlıq, insan hüquqlarının müdafiəsi ilə məşğul olan dövlət və qeyri-dövlət orqanlarının işində təkmilləşmə, insan hüquqları ilə bağlı tədris, maarifləndirmə, elmi-analitik və əməkdaşlıq tədbirləri sahələrində dövlət siyasətinin başlıca prioritetlərini nəzərdə tutmaqla, insan hüquqlarının müdafiəsi sferasında dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

Tədqiqat işinin aktuallığını göstərən məsələlərdən biri də odur ki, Respublikamızda beynəlxalq hüquq normalarının tətbiqində konkret

mexanizmlər mövcud deyil. Konkret mexanizmlər dedikdə, beynəlxalq-hüquqi normaların, ilk növbədə beynəlxalq hüququn ümumtanınmış prinsiplərinin və beynəlxalq müqavilə normalarının milli hüquq sistemində implementasiyası ilə bağlı tədbirlər sistemi nəzərdə tutulur.

Beləliklə, beynəlxalq-hüquqi normaların tətbiqi və bu prosesdə meydana çıxan problemlərin həlli aktual məsələdir. AR Konstitusiyasına əsasən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Eyni zamanda, Konstitusiyaya uyğun olaraq, insan hüquqları ilə bağlı problemlərin həllində məhkəmələr ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə başlıca rol oynayırlar. Bizim fikrimizcə, ədalət mühakiməsinin düzgün və effektiv şəkildə həyata keçirilməsi zamanı beynəlxalq-hüquqi normaların tətbiqi zəruri şərtdir.

İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üzrə həm dövlət, həm də qeyri-dövlət orqanlarının fəaliyyəti, bu zaman meydana çıxan problemlər və onların həlli yolları ilə bağlı ətraflı elmi araşdırma aparılmamışdır. Bu istiqamətdə aparılan tədqiqatlar ayrı-ayrı dövlət orqanlarının fəaliyyətini əks etdirməklə, kompleks xarakter daşımamışdır. Hesab edirik ki, bu sahədə həm beynəlxalq, həm də inkişaf etmiş sivil dövlətlərin təcrübəsi nəzərə alınmaqla müqayisəli hüquqi təhlilin aparılması aktualdır.

Mövzunun aktuallığını göstərən amillərdən biri ölkəmizin Avropaya inteqrasiyası ilə bağlıdır. AR-in geosiyasi maraqları Avropaya inteqrasiya zərurətini müəyyən edir. Belə inteqrasiya hüquq məkanını da əhatə edir. Bu prosesin vacib şərtlərindən biri Avropanın insan hüquq və azadlıqlarının müdafiəsi sferasındakı standartlarının qəbul və tətbiq edilməsi ilə əlaqədardır. Avropa standartlarının birinci tələbi odur ki, bu məsələ bütün Avropada, o cümlədən AR-də eyni olmalıdır.

**Tədqiqatın obyektini** insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının AR qanunvericiliyində və hüquq tətbiqi prosesində realizəsi zamanı meydana çıxan ictimai münasibətlər təşkil edir. Bundan əlavə, şəxsiyyət və dövlət orqanları arasında insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində meydana çıxan və inkişaf edən hüquqi münasibətlər də hazırkı tədqiqatın obyektini təşkil edir.

**Tədqiqatın predmetini** insan hüquqlarının realizəsi sferasında beynəlxalq və dövlətdaxili hüquq normalarının qarşılıqlı təsirinin forma və metodları, hüquq nəzəriyyəsi nöqteyi-nəzərindən beynəlxalq hüquqi normaların dövlətdaxili implementasiya mexanizminin vəziyyəti və prespektivləri təşkil edir. Eyni zamanda, BMT, Avropa Şurası, MDB və digər universal və regional səviyyədə qəbul edilmiş beynəlxalq hüquqi

aktlar, xüsusilə də insan hüquqlarına dair fundamental sənədlər olan 1948-ci il Ümumdünya İnsan hüquqları Bəyannaməsi, 1966-cı il Beynəlxalq paktları, 1950-ci il Avropa İnsan hüquqları Konvensiyası, Avropa Məhkəməsinin presedentləri, Respublikamızın insan hüquqları sahəsində bağladığı ikitərəfli beynəlxalq müqavilə və sazişlər, AR Konstitusiyası, cinayət, mülki, ailə, inzibati, prosessual və digər sahələrdə qüvvədə olan normativ hüquqi aktları, AR Konstitusiya və Ali Məhkəməsinin qərarları, insan hüquqları, beynəlxalq və dövlətdaxili hüququn əlaqəsinə dair elmi ədəbiyyatlar, məqalələr, statistik göstəricilər və hesabatlar təşkil edir.

Beləcə, tədqiqatın predmetini müasir Azərbaycanın hüquq sistemində insan hüquq və azadlıqlarının realizəsi prosesinin nəzəri-hüquqi təbiəti, hazırkı vəziyyəti və perspektivləri təşkil edir.

**Tədqiqatın məqsədi** bir sıra məsələlərlə bağlıdır. İlk öncə, insan hüquq və azadlıqları sahəsində beynəlxalq və dövlətdaxili hüququn əlaqəsinin nəzəri problemlərinin həlli və bu əsasda qanunvericilik və hüquq tətbiqi praktikasının təkmilləşdirilməsi ilə bağlı təkliflərin irəli sürülməsidir. Mövzunun aktuallığından çıxış edərək hüquq nəzəriyyəsi çərçivəsində beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı təsiri əsaslarının müəyyən edilməsi, insan hüquqlarının müdafiəsi sferasında beynəlxalq və dövlətdaxili hüquq normalarının əlaqəsi probleminin tədqiqi, bu prosesin qanunauyğunluqlarının və yeni tendensiyalarının üzə çıxarılması, insan və vətəndaşın hüquq və azadlıqlarının normativ hüquqi təmini konsepsiyasını formalaşdıran ümumi yanaşmaların işlənib hazırlanması qarşıya məqsəd kimi qoyulmuşdur.

Hazırkı tədqiqat işinin əsas məqsədlərindən biri Azərbaycanın hüquq sistemində bilavasitə prioritetə və birbaşa təsir gücünə malik olan, eyni zamanda milli qanunvericilikdə öz təsbitini tapan və hüquq tətbiqi prosesində həyata keçirilən insan hüquqları sahəsində beynəlxalq hüquqi normaların üstün şəkildə tətbiqi probleminin kompleks şəkildə araşdırılması təşkil edir. Qeyd edilən problemin kompleks tədqiqi nəzəri və hüquqi aspektə malikdir. Nəzəri aspekt odur ki, bu məsələ ölkənin əsas qanununda və digər qanunvericilik aktlarında ümumi şəkildə təsbit edilir. Hüquqi aspekt isə digər sivil dövlətlərdə olduğu kimi, Azərbaycanda da beynəlxalq hüquqi normaların tətbiqində üstün rola malik olmasının hüquqi əsaslarını müəyyənləşdirməklə bağlıdır.

Tədqiqat işinin məqsədlərindən biri də odur ki, insan hüquqları sferasında beynəlxalq hüquqi normalar realizə edən orqanların fəaliyyətinin müsbət və mənfi tərəflərini üzə çıxarmaqla, zamanın tələblərinə uyğun yeni təkmilləşdirmə metodlarının təklif edilməsidir. Qeyd edilən məqsədə nail

olmaq üçün həm beynəlxalq hüquqi, həmçinin inkişaf etmiş hüquq təcrübəsinə malik Avropa ölkələrinin müsbət təcrübəsindən istifadə etməklə yeni mexanizmlərin təsis edilməsini təklif etməkdir.

Yuxarıda qeyd edilənləri ümumiləşdirib belə qeyd edək ki, tədqiqatın məqsədi insan hüquqları sferasında beynəlxalq-hüquq normalarının AR-in hüquq sistemində realizəsi xüsusiyyətlərini müəyyən etmək və realizə prosesində meydana çıxa biləcək problemlərin həlli istiqamətində nəzəri əsaslar formalaşdıraraq, həmin normaların realizəsi ilə məşğul olan dövlət və qeyri-dövlət orqanlarının fəaliyyətində yeni təkliflərin irəli sürülməsidir.

Qeyd edilən məqsədlərə nail olunması istiqamətində **aşağıdakı vəzifələr müəyyən edilmişdir**:

- Beynəlxalq və dövlətdaxili hüququn əlaqəsi ilə bağlı elmi ədəbiyyatları və normativ materialları ümumiləşdirmək və təhlil etmək, AR-in və digər dövlətlərin beynəlxalq və dövlətdaxili hüququn əlaqəsi məsələsi üzrə qanunvericilik və hüquq tətbiqi praktikasını, doktrinasını kompleks şəkildə araşdırmaq;
- AR-in hüquq sistemində beynəlxalq hüquq normalarının yerini müəyyənləşdirmək, həmin normaların normativ və praktik baxımdan üstün tətbiqi əsaslarını müəyyən etmək, bu prosesdə kolliziya hallarını aşkara çıxarmaq;
- AR-in milli hüquq normaları ilə beynəlxalq hüququn normalarının qarşılıqlı təsiri ilə bağlı ümumnəzəri konsepsiyanın işlənib hazırlanmasına kömək edəcək təklif və tövsiyələrin verilməsi;
- Beynəlxalq hüquq normalarının hüquqi qüvvəsi məsələsini araşdırmaq və hüquq tətbiqi prosesində həmin normaların milli qanunvericilik üzərində hansı üstünlüklərə malik olmasını üzə çıxarmaq;
- Beynəlxalq hüququn ümumtanınmış prinsiplərinin AR hüquq sistemində yeri məsələsini tədqiq etməklə, həmin prinsiplərin milli qanunvericiliyin tərkib hissəsi olub-olmaması məsələsinə aydınlıq gətirmək;
- Beynəlxalq müqavilə normalarının milli qanunvericilik sistemində tutduğu yer, həmin müqavilələrin ölkənin qanunvericilik sisteminə hansı şəkildə daxil olması, tətbiqi və təfsiri məsələlərini araşdırmaq, insan hüquqları sahəsində universal, regional xarakterli müqavilə və konvensiyaları və AR-in ikitərəfli beynəlxalq sənədlərini tədqiq etmək;

- İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının AR qanunvericiliyinə implementasiyasının nəzəri və praktiki xüsusiyyətləri müəyyən etmək, beynəlxalq hüquq normalarının dövlətdaxili implemantesiyasının əsas anlayış, metod və mexanizmlərini müəyyən etmək, dövlətdaxili implementasiya mexanizminin mövcud çatışmazlıqlarını aşkarlamaqla, problemin həlli istiqamətində yeni tövsiyə və təkliflərin irəli sürülməsi;
- İnsan hüquqlarının hüquqi təbiəti, strukturu, təsnifatı və realizəsi ilə bağlı elmi ədəbiyyatlardakı fikir müxtəlifliklərini tədqiq edərək bu istiqamətdə yeni konsepsiyanın hazırlanması;
- "İnsan hüquqlarının realizəsi", "İnsan hüquqlarının müdafiəsi" və "İnsan hüquqlarının təmin edilməsi" anlayışları arasındakı fərqləri müəyyən etmək, bu sferada nüfuzlu mütəxəssislərin əsərlərini araşdırmaq;
- İnsan hüquq və azadlıqlarının realizəsinə yardımçı olan siyasi, iqtisadi, sosial, mədəni faktorların sistemləşldirilməsi və tədqiqi;
- İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin anlayışı və məzmunu müəyyən etmək;
- İnsan hüquqları sahəsində müasir beynəlxalq standartları ətraflı, hərtərəfli şəkildə tədqiq etmək və həmin beynəlxalq standartların AR qanunvericiliyində realizəsinə neqativ təsir göstərən səbəb və amilləri aşkar etmək;
- Xarici ölkələrin, konkret olaraq ABŞ, Almaniya, Fransa, Böyük Britaniya kimi ölkələrin praktikasının müqayisəli təhlili əsasında insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üzrə beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi problemini aydınlaşdırmaq;
- İnsan hüquqları sahəsində beynəlxalq hüquqi normaları realizə edən beynəlxalq mexanizmlərin fəaliyyətini təhlil etmək. İnsan hüquqları sahəsində beynəlxalq təşkilati mexanizmlər, konkret olaraq, BMT və onun insan hüquqları sahəsində əsas qurumları, müqavilə orqanlarının fəaliyyətini təhlil etmək;
- İnsan hüquqlarının müdafiəsi problemi ilə məşğul olan BMT-nin ixtisaslaşmış təsisatları, xüsusilə də YUNESKO, BƏT, ÜST kimi fəaliyyətində insan hüquqlarının müdafiəsi prioritet təşkil edən təsisatların fəaliyyətini təhlil etmək;
- İnsan hüquqlarının müdafiəsi sferasında Avropa, Amerika, MDB, Afrika regionlarında fəaliyyət göstərən regional təşkilati

mexanizmlərin fəaliyyətinə nəzər yetirmək, eyni zamanda bu regionlarda qüvvədə olan normativ mexanizmlərin vəziyyətinə diqqət yetirmək;

- AR-də insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin dövlətdaxili normativ-hüquqi mexanizmləri məsələsini araşdırmaq;
- AR-in cinayət, mülki, əmək, ailə, prosessual qanunvericiliklərində insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının hansı səviyyədə təsbit olunmasını təhlil edərək, mövcud çatışmazlıqları konkret misallarla qeyd etmək;
- Qanunverici, icra və məhkəmə hakimiyyətin insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üzrə fəaliyyətini və həmin qurumların müvafiq sferada fəaliyyət istiqamətlərini öyrənmək, mövcud reallıqlar və çatışmayan cəhətləri üzə çıxarmaq;
- İnsan hüquqları sferasında beynəlxalq hüquq normalarının realizəsi ilə məşğul olan publik hakimiyyət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üzrə tövsiyələr hazırlamaq, həmçinin pozulmuş insan hüquq və azadlıqlarının az vaxt ərzində və effektiv şəkildə bərpası üçün işlək metodlar təklif etmək;
- İnsan hüquq və azadlıqlarının müdafiəsi üzrə məhkəmə-hüquq sisteminin hazırkı fəaliyyətində mövcud olan nöqsanların və həmin nöqsanların yaranma səbəblərinin üzə çıxarılması və həlli yollarının təklif edilməsi;
- Ombudsman, vəkillik, bələdiyyə, ictimai birliklər, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri kimi qeyri-dövlət orqanlarının insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi sahəsində fəaliyyəti problemini tədqiq etmək və həmin orqanların fəaliyyətini tənzimləyən qanunvericilikdəki nöqsanların qeyd edilməsi və aradan qaldırılması üzrə təkliflər irəli sürmək;
- Milli qanunvericiliyin insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi istiqaməti üzrə təkmilləşdirilməsi tendensiyasını göstərməklə bu sahədə təkliflər irəli sürmək.

**Tədqiqatın metodoloji əsasını** dialektikanın kateqoriya və prinsipləri, o cümlədən hüquq elmində hamılıqla qəbul olunan ümumnəzəri və xüsusi elmi metodlar təşkil edir. Tədqiqat işində formal-məntiqi metoddan, müqayisəli hüquq metodundan, tarixi metoddan və sosioloji metodlardan istifadə edilmişdir.

Müəllif insan hüquqlarının ümumnəzəri əsaslarının və onların realizəsi mexanizminin tədqiqində dialektik metod tətbiq edilmişdir ki, bu da insan hüquqlarının müasir struktur elementlərinin, təsnifat, tətbiq imkanlarının müəyyən edilməsində müsbət rol oynamışdır. İnsan hüquqlarına və onların realizəsinə dair problemlərin kompleks analizi hüquq tətbiqi və hüquq realizəsi subyektlərinin fəaliyyətinə dair yeni tövsiyə və təkliflərin hazırlanmasına imkan vermişdir.

Tədqiqat işində müəllif Azərbaycan, rus, alman, ingilis, fransız və amerikan hüquq ədəbiyyatlarındakı fikir müxtəlifliklərini, kontinental və anqlo-sakson hüquq sistemlərini müqayisəli hüquq metodundan istifadə etməklə təhlil etmiş və AR hüquq sistemində insan hüquqlarının realizəsinə dair yeni yanaşmalar təklif etmişdir.

Tədqiqat işini hazırlayarkən müəllif, sosioloji metodun köməyi ilə AR-in müxtəlif şəhər və rayonlarında (Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və s.) yerli icra hakimiyyətlərinin, məhkəmələrin, polis və prokurorluq orqanlarının, notariat kontorlarının, vəkil məsləhətxanalarının, müxtəlif ictimai təşkilatların insan hüquqlarının realizəsi, dövlət proqramlarının icrası vəziyyəti, əhalinin müraciətləri, pozulmuş hüquqların bərpası, əhalinin maarifləndirilməsi və s. bu istiqamətdə gördüyü işlərlə yaxından tanış olmuş və bu sferada müvafiq tövsiyə və təklifləri tədqiqat işində işıqlandırmışdır.

**Tədqiqatın nəzəri əsasları**. Tədqiqat işində qeyd edilən müddəaların əsaslandırılması üçün müxtəlif istiqamət və sahələrin hüquqşünas, filosof, sosioloqlarının əsərlərində, həmçinin dövri nəşr olunan materiallardan istifadə edilmişdir. İnsan hüquqlarının hüquqi təbiətinin müxtəlif aspektləri, onların realizəsi mexanizmlərin həm ümumnəzəri, həm də praktiki nöqteyi-nəzərdən tədqiq edilmişdir. İnsan hüquqlarının müxtəlif aspektləri ilə bağlı məsələlərin araşdırılmasında bu sferada klassik müəlliflər hesab edilən A.Tokvil, A.Şopenhauer, A.Daysi, C.Lokk, H.Hegel, İ.Kant, İ.Bentam, K.Popper, Ş.Monteskyenin əsərlərinə müraciət edilmişdir.

Tədqiqat işində insan hüquqlarının realizəsi nöqteyi-nəzərindən beynəlxalq və dövlətdaxili hüququn problemləri ilə bağlı bir çox müəlliflərin əsərlərinə istinad edilmişdir. Bu istiqamətdə rusiyalı mütəxəssislərdən A.A.Rubanov, A.V.Miçkeviç, A.Q.Talalayev, B.N.Topornina, V.N.Kudryavçev, Q.V.İqnatenko, Q.İ.Tunkin, D.B.Levin, E.T.Usenko, İ.İ.Lukaşuk, İ.N.Senyakina, İ.P.Blişenko, L.M.Entin, L.N.Şestakov, M.N.Marçenko, O.İ.Tiunov; Qərbi Avropa və Amerikalı mütəxəssislərdən A.Robertson, C.Donneli, C.Qinzburq, C.Morqan-Foster,

C.Staton, Ç.Kameron, D.Djebrin, D.Forsite, D.J.Harris, D.O'Konnel, F.Alston, F.Sloan, H.Morgentau, H.Steyner, H.Şmitz, H.Trippel, J.Hamelink,L.Henkin, L.Qudriç, L.Luterpaxt, L.Oppenheym əsərlərindən istifadə olunmuşdur.

Tədqiqat işində əcnəbi müəlliflərlə yanaşı yerli mütəxəssislərin əsərlərinə də müraciət olunmuşdur. Belə ki, ümumi hüquq nəzəriyyəsi ilə bağlı məsələlərdə A.D.Seyidov, M.F.Məlikova, M.N.Səmədov, T.Z.Əliyev, X.İ.Hacıyev; insan hüquqları kontekstində beynəlxalq və dövlətdaxili hüququn əlaqəsi ilə bağlı Ə.İ.Əliyev, L.H.Hüseynov, R.F.Məmmədov, Ə.İ.Sadıxov, Ə.Q.Məmmədov, R.K.Məmmədov, Ş.İ.Əliyev, T.İ.Hüseynov, E.Ə.Əliyev, Ə.C.Seyidov; hüququn müxtəlif sahələrində nüfuzlu mütəxəssislərdən olan Z.A.Əsgərov, A.İ.Mustafayeva, A.M.Qasımov, E.T.Süleymanova, F.M.Abbasova, F.Y.Səməndərov, İ.M.Rəhimov, Ə.H.Rzayev, R.M.Aslanov, K.N.Səlimov, M.Qafarov, M.N.Əliyevin əsərlərinə müraciət olunmuşdur.

**Tədqiqatın normativ bazasını** insan hüquqları sferasında qəbul edilmiş universal, regional və ikitərəfli beynəlxalq müqavilələr, beynəlxalq məhkəmə orqanlarının qərarları, AR-in insan hüquqlarının müdafiəsi sahəsində qanunvericilik aktları və xarici dövlətlərin insan hüquqları sferasındakı normativ aktları təşkil edir. Bundan başqa, müəllifin tədqiqat işi ilə bağlı gəldiyi nəticələr AR Konstitusiya və Ali Məhkəmələrinin qərarlarına, AR İnsan hüquqları üzrə Müvəkkilin illik hesabatlarına, mərkəzi icra hakimiyyəti orqanlarının statistik məlumatlarına, vəkillik və notariat fəaliyyəti ilə bağlı AR Ədliyyə Nazirliyinin və AR Vəkillər Kollegiyasının rəsmi məlumatlarına, müxtəlif qeyri-hökumət təşkilatlarının illik hesabat və açıqlamalarına, həmçinin aparılmış müxtəlif ictimai sorğuların nəticələrinə əsaslanır.

**Tədqiqatın elmi yeniliyi** onunla əsaslandırıla bilər ki, insan hüquqları sferasında beynəlxalq hüquq normalarının milli hüquq sistemində realizəsi məsələləri, o cümlədən dövlət və qeyri-dövlət orqanlarının bu prosesdə iştirakı AR-in hüquq doktrinasında kompleks tədqiqat predmeti olmamışdır. Eyni zamanda, AR dövlət orqanlarının gələcək fəaliyyətində insan hüquqları sahəsində beynəlxalq hüquqi standartlardan geniş şəkildə istifadə edilməsi, milli qanunvericiliyimizdəki mövcud nöqsanların inkişaf etmiş hüquq sisteminə malik ölkələrin təcrübəsi nəzərə alınmaqla təkmilləşdirilməsi və insan hüquqları sferasındakı beynəlxalq hüquq normalarının milli məhkəmələr tərəfindən tətbiqi ilə bağlı yeni yanaşmanı özündə ehtiva edir.

Tədqiqatın elmi yeniliyini özündə ifadə edən aşağıdakı **yeni elmi müddəalar** müdafiəyə təqdim olunur:

1. İnsan hüquqları sahəsində beynəlxalq əməkdaşlıq davamlı inkişaf konsepsiyasına əsaslanmalıdır. Bu konsepsiya həm insan hüquqları üçün, həm də bütövlükdə bəşəriyyətin mövcudluğu üçün təhlükə yaradan qlobal problemlərin həllinə yönəlmişdir. Onların həlli beynəlxalq həmrəylik tələb edir. Son məqsəd sabit, terror təhlükəsi olmayan dünyanın yaradılması, insanların hüquq və azadlıqlarının azad şəkildə həyata keçirilməsi üçün şəraitin yaradılmasıdır. Buna görə, məhz davamlı inkişafın maraqları beynəlxalq əməkdaşlığın (konkret olaraq insan hüquqlarının müdafiəsi sahəsində) əsas məsələləri üzrə razılığın əldə edilməsi üçün əsas olmalıdır. İnsan hüquqlarına yeni çağırışlar və təhlükələr (təhdidlər), eyni zamanda daha geniş xarakterli qlobal problemlərdir və müasir dünya inkişafının qloballaşmasını nəzərə alaraq onların həlli tək milli səviyyədə mümkün deyil. Bu halda beynəlxalq əməkdaşlığın başqa sahələrində mövcud problemlərin həlli insan hüquqları üçün nəticələr doğura bilər, çünki beynəlxalq əməkdaşlığın hər hansı məsələləri üzrə qərarların hazırlanması zamanı insan hüquqlarına onların təsirini qiymətləndirmək lazımdır.

2. Bir qrup insan hüquqlarının pozulması başqa hüquqların pozulmasına da gətirib çıxarır, bu səbəbdən həmin problemləri bir-birindən ayrılıqda yox, kompleks şəkildə həll etmək lazımdır. Məsələn, yoxsulluq, azlıqların hüquqların pozulması terrorizmə və silahlı konfliktlərə gətirib çıxarır ki, bu da, öz növbəsində, ümumi inkişafa, sosial rifaha mane olur və digər insan hüquqların pozulmasına səbəb olur. Əsas diqqət insanın hüquqların pozulmalasının köklü səbəblərinin aradan qaldırılmasına yönəlməlidir. İnsan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın mövcud mexanizmlərində effektivlik meyarları çatışmır. Konkret olaraq, insan hüquqları üzrə müqavilə orqanlarını qeyd etmək lazımdır. Həmin orqanların fəaliyyətində təkrarlama halları aradan qaldırılmalı, müqavilələrin özlərinin iştirakçılarının sayı artırılmalı, mümkün qədər daha çox dövlətin müqavilə orqanlarının fakultativ səlahiyyətini tanıması məqsədəuyğundur. Qeyri-müqavilə orqanlarına gəlincə, burada da təkrarlama problemi müşahidə olunur, onların fəaliyyəti dəqiq və konkret formada nizamlanmamışdır.

3. Müasir dövrdə AR-in beynəlxalq iqtisadi münasibətlərdə artan nüfuzu, bütün sahələrdə onun regionun birinci dövlətinə çevrilməsi siyasi, iqtisadi, mədəni sahələrdə yeni münasibətlərin formalaşmasına gətirib çıxarmışdır. Belə münasibətlərin effektiv şəkildə tənzimlənməsi ilk

növbədə, beynəlxalq hüquq normalarına uyğun yeni standartların işlənib hazırlanması zərurəti yaratmışdır. Bu səbəbdən beynəlxalq hüquq normalarının milli qanunvericiliyimizdə, o cümlədən AR İXM-də implementasiyasının əsası təsis edilməlidir.

4. İnsan hüquqlarının genezisi, strukturu, təsnifatı, tətbiqi şərtləri, spesifik xüsusiyyətləri ilə bağlı məsələləri tədqiqi onu deməyə əsas verir ki, bu sahədə qüvvədə olan beynəlxalq hüquqi standartların realizəsinin dövlətdaxili mexanizmi həmin hüquq və azadlıqların realizəsinin ümumi mexanizmindən bilavasitə asılıdır. Bütün bu məsələlər həmin mexanizmlərin orqanik şəkildə araşdırılmasını və istənilən dövlətdə hüquq və azadlıqların realizəsinin ümumi sxeminin yaradılmasını tələb edir. Qeyd etmək lazımdır ki, son vaxtlar regional çərçivədə əməkdaşlıq, xüsusilə də hüquqi yardım, mədəniyyət, təhsil sahələrində münasibətlərinin intensivləşməsi insan hüquq və azadlıqlarının realizəsi üzrə regional mexanizmlərin təsis edilməsi prosesinə təkan vermişdir.

5. İnsan hüquqlarının realizəsi mexanizmində məhkəmə sisteminin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Məhkəmələr hüquq normalarını hərəkətə gətirir, pozulmuş hüquq və azadlıqları bərpa edir. İnsan hüquqlarının müdafiəsi baxımından məhkəmələrdə cinayət, inzibati və mülki işlərə baxılması beynəlxalq və milli hüququn qarşılıqlı əlaqəsi fonunda həyata keçirilir. AR İXM-in 128-ci maddəsinin prosessual təminat sistemi insan hüquqlarının qorunmasında tətbiq edilən çoxpilləli müdafiə mexanizminə uyğun deyildir. Bu sahədə qanunvericiliyin inkişaf etdirilməsi məqsədilə müvafiq olaraq qərardaddan həm şikayət, həm də protest üzrə dəyişiklik edilməlidir.

6. Vəkillik haqqında AR qanunvericiliyi praktiki olaraq bir sıra istiqamətlərdə insan hüquq və azadlıqlarının müdafiəsini təmin etməməkdədir. Xüsusən də, mülki, inzibati xətalar və inzibati məhkəmə icraatında vəkilin etibardan sui-istifadə hallarının qarşısını almaq üçün müvafiq qanuvericiliyin dəyişiklikliyinə zərurət yaranmışdır.

7. Məlum olduğu kimi “Qeyri-hökumət təşkilatları (İctimai birliklər və fondlar) haqqında” AR qanununa görə, ictimai birlik gəlir götürmək məqsədi ilə fəaliyyət göstərməməlidir. Lakin təcrübə göstərir ki, bunun əks tendensiyaları izlənməkdədir. Bu halların qarşısını almaq üçün qanunvericilikdə bu qurumlara qarşı müvafiq məsuliyyət institutu formalaşdırılmalıdır.

8. İnsan hüquqları institutunun formalaşması şəxsiyyətin, cəmiyyətin və dövlətin mübarizəsinin nəticəsidir. Bu prosesə elmi yanaşma belə bir müddəa irəli sürməyə imkan verir ki, insan hüquqları sahəsində

yazılı normalar o zaman reallığa çevrilir ki, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu başa çatsın. Bu kontekstdə vətəndaş cəmiyyəti institutları şəxsiyyətin maraqlarının həyata keçirilməsi məqsədilə dövlətə praktik olaraq təsir göstərmək imkanına malik olur. AR İXM-in 51.2-ci maddəsi ilə insan və vətəndaşın şəxsi həyatının toxunulmazlığına aid normaların praktikada pozulmasının qarşısını almaq üçün qanunvericilikdə inzibati məsuliyyətin təsis edilməsi üzrə bir sıra islahatlar aparılmalıdır.

9. İctimai, siyasi-hüquqi əhəmiyyəti daha çox cəlb edən sahələrin də elektron müraciət formasına gətirilməsi bir tərəfdən fiziki və hüquqi şəxslərin hüquqlarının qorunması, daha səmərəli formada təmin edilməsinə gətirib çıxararaq, digər tərəfdən dövlət orqanlarında inzibati idarəçilik strukturlarının islahatına səbəb olacaqdır. "Vətəndaşların müraciətləri haqqında" AR qanununda vətəndaşların müraciətlərinin elektron forması müəyyən edilmişdir, lakin praktikada vətəndaşların müraciətlərini reallaşdıra bilmədiyi bir sıra hallara rast gəlinir. Bu sahədə qanunvericilikdə dəyişikliklərin reallaşması insan hüquqlarının müdafiəsini daha da səmərəli edəcəkdir.

10. Dövlətlərin əməkdaşlığı konsepsiyası inkişaf edərək universal xarakter almış və siyasi narazılıqların azalmasına yol açmışdır. Dövlətlər arasındakı beynəlxalq əməkdaşlıq müxtəlif sferaları əhatə edir, lakin insan hüquq və azadlıqlarının müdafiəsi prioritet istiqamətdir. Bu tip münasibətlər inkişaf etdikcə "beynəlxalq hüquqi standartlar" termini formalaşmışdır. Bu termin insan hüquq və azadlıqları sferasında dövlətlərin konkret beynəlxalq hüquqi öhdəliklərini özündə ehtiva edir. AR-də insan hüquqlarının pozulması hallarına dövlət orqanlarında vətəndaşların qəbulu prosesində də rast gəlinir. Vətəndaşların qəbulu zamanı prosesin şəffaflaşdırılması və insan hüquqlarının müdafiəsini təmin edəcək tədbirlər istiqamətində dövlət qurumlarının fəaliyyətinin internet vasitəsilə müşahidəsi təmin edilməlidir.

11. Hal-hazırda beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi insan hüquq və azadlıqları sferasında daha qabarıqdır. Bu səbəbdən dövlətlərin beynəlxalq və dövlətdaxili hüququn əlaqəsinin hansı yolunu seçməsi vacib məsələdir. Burada dualist və monist nəzəriyyə üstünlük təşkil edir. Respublikamızın hüquq sisteminin təhlili, onun monizm konsepsiyasına daha çox uyğunluğunu göstərsə də, inzibati qanunvericilik sahəsində insanların pozulmuş hüquqları ilə bağlı beynəlxalq instansiyalara müraciəti qeyri-mümkündür. Bu da ciddi hüquq boşluğu kimi dəyərləndirilməlidir.

12. Tədqiqat işində elmi ədəbiyyatlarda insan hüquqlarının realizəsinin hüquqi təminatı ilə bağlı ideya və fikirlər inkişaf etdirilmişdir. İnsan hüquqlarının realizəsinin hüquqi təmini insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsi ilə məşğul olan subyektlərin məqsədyönlü fəaliyyəti, həmçinin hüquqi, informasiya və digər münasibətlərə təsir obyektlərinin məcmusu ilə xarakterizə olunur. Müəllif insan hüquqlarının realizəsinin anlayışını izah edərək, qeyd edir ki, əsas insan hüquq və azadlıqları universal, ümümbəşəri kateqoriyadır, onların praktikada realizəsi isə kifayət qədər hüquqi və digər problemlər doğurur.

13. Müasir hüquq ədəbiyyatlarında insan hüquqlarına geniş mənada anlayış verilir. Bura insan, vətəndaş və şəxsiyyətin hüquq və azadlıqları və onların müdafiəsi daxil edilir. İnsan hüquqlarının müdafiəsinin ilkin və vacib şərti onun normativ hüquqi xarakterə malik olmasıdır, çünki yuxarıda qeyd etdiyimiz hüquqi dövlətdə normativ hüquqi aktlar üstün rol oynayır. Həmin normativ hüquqi aktlar həm insan hüquqlarını müəyyənləşdirir, həmçinin onların müdafiəsi üsullarını təsbit edir. Eyni zamanda, dövlət və qeyri-dövlət orqanlarının müvafiq sferada fəaliyyəti də normativ hüquqi aktlara əsaslanmalıdır.

14. İnsan hüquqları sferasında beynəlxalq hüquqi normaların realizəsi üzrə bütün dövlətdaxili mexanizmlərin işinin səmərəliliyini müəyyən edən əhəmiyyətli faktor onların razılaşdırılmış, bir-biri ilə əlaqəli şəkildə fəaliyyətidir. İnsan hüquqlarının müdafiəsi sferasında beynəlxalq hüquq normalarının tənzimetmə obyektini təşkil edən prosessual münasibətlər məzmun baxımından beynəlxalq xarakterlidir, lakin bir qayda olaraq dövlətdaxili səviyyədə realizə olunur. Bu isə həmin münasibətlərin tənzimlənməsində dövlətdaxili prosessual hüquq normalarının iştirakını zəruri edir.

15. AR-də beynəlxalq hüquq normalarının tətbiqində implementasiyanın inkorporasiya üsulundan istifadə edilir, lakin zamanın tələbləri dəyişdikcə, digər üsullardan da istifadəyə yol verilməsi mümkündür. Belə ki, AR-in qoşulduğu müqavilələrdə cəmiyyətin hazırkı maraq və mənafeyi ilə üst-üstə düşməyən müddəalara da rast gəlinə bilər. Belə hallarda, transformasiya üsulundan istifadə edilə bilər. Bu zaman məhkəmələrin də qanun tətbiqində cəsarəti və sərtliyi də artar. İnsan hüquqları sferasında beynəlxalq hüquq normalarının AR-in hüquqi sistemində implementasiyası həmin normaların publik xarakterli olmasından irəli gələrək bir qayda olaraq inkorporasiya üsulu ilə baş verir. Lakin xüsusi münasibətlər sistemi bağlılıq istinad üsulundan istifadə edilməsini istisna etmir.

16. İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının dövlətdaxili realizəsi təkmilləşməlidir. Bu proses həm normativ-hüquqi, həmçinin institusional səviyyədə aparılmalıdır. Hər bir dövlət orqanının fəaliyyətində insan hüquqlarının müdafiəsi prioritet məsələ olmalıdır. Bunun üçün dövlət orqanlarının əsasnamə və reqlamentlərində müvafiq dəyişikliklər həyata keçirilməlidir. İnsan hüquq və azadlıqlarının müdafiəsi üzrə işlək və çevik mexanizmlərin təsis edilməsi demokratik hüquqi dövlətdə hakimiyyətin məhdudlaşdırılmasının keyfiyyət göstəricisidir. Bunun üçün ictimai nəzarət institutları, xalq idarəçiliyinin yeni formaları, məsələn yerli, istehsal, təhsil, səhiyyə idarəçiliyi təsis edilməlidir.

17. İnsan hüquqları tarixən dəyişən kateqoriyadır. Onların məzmunu, həcmi, strukturu cəmiyyətin və dövlətin inkişafına adekvatdır. Bu baxımdan insan hüquqlarını insanın bu və ya digər maddi və yaxud mənəvi töhfəyə bağlılığı kimi qəbul etmək məqsədəuyğun hesab olunur. Həmin maddi və mənəvi töhfələrin həyata keçirilməsi cəmiyyətin və dövlətin potensial imkanlarından birbaşa asılıdır. AR-də elmi ədəbiyyatların təhlili göstərir ki, hüquq nəzəriyyəçiləri insan hüquq və azadlıqlarının müxtəlif problemlərini tədqiq edərkən insan hüquqlarının hüquqi təminatı anlayışına toxunmurlar. Müəllif isə insan hüquqlarının hüquqi təminatının anlayışını vermişdir.

18. Tədqiqat işində müəllifin apardığı müqayisəli hüquqi yanaşma belə bir qənaətə gəlməyə əsas verir ki, Avropanın inkişaf etmiş dövlətlərinin qanunvericiliyində təhsil, səhiyyə, mənzil, sosial təminat sahəsindəki insan hüquqlarına, xüsusilə də sosial hüquqların təminatına daha çox yer ayrılmışdır. Bu istiqamətdə həyata keçirilən dövlət proqramları da bunu sübut edir. Qeyd edək ki, sosial rifahı yaxşı təmin olunmayan insanlar yaşadıqları cəmiyyətdə müsbət yeniliklərə az meyl göstərir, hətta bu meyar cinayətlərin sayının artmasına rəvac verən amillərdəndir. Bu səbəbdən AR-də sosial təminat sahəsində insan hüquqlarının müdafiəsinə, müvafiq sferada beynəlxalq hüquqi standartların realizəsi mexanizmlərinin fəaliyyətinin təkmilləşdirilməsinə diqqət artırılmalıdır.

19. AR-in insan hüquqları sahəsində qanunvericilik sistemi dövlətdaxili normativ aktlardan və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Beynəlxalq hüququn ümumtanınmış prinsipləri birbaşa olaraq bu qanunvericilik sisteminə daxil olmasa da, onun formalaşmasında və prinsiplərinin müəyyən edilməsində hüquqi əsas qismində çıxış edir. İnsan hüquqları sferasında beynəlxalq hüquq normalarının AR-in hüquq sistemində implementasiyası, yalnız bu

normaların milli səviyyədə tətbiq edilməsi və dövlətdaxili qanunvericiliyin həmin normalara uyğunlaşdırılması ilə nəticələnmir, həmçinin dövlətdaxili və beynəlxalq məhkəmə prosedurlarının qarşılıqlı fəaliyyətdə olması ilə müşayiət olunur. Qarşılıqlı fəaliyyət hər iki prosedurun bir tərəfdən, müstəqil olmasını, digər tərəfdən, beynəlxalq prosedurun hüquqi nəticəsi olan qərarların milli səviyyədə tanınmasını şərtləndirir.

20. AR-də insan hüquq və azadlıqlarının realizəsinin təmin edilməsi, beynəlxalq və dövlətdaxili mexanizmlərin qarşılıqlı əlaqəsini şərtləndirir. Maddi-hüquqi cəhətdən bu əlaqə insan hüquqları ilə bağlı beynəlxalq standartların milli qanunvericiliyə daxil edilməsində ifadə olunursa, prosessual-hüquqi baxımdan bu qarşılıqlı əlaqə hüquqların müdafiəsi üzrə beynəlxalq orqanların imkanlarından istifadə olunması istiqamətində milli mexanizmlərlə bu orqanların fəaliyyətinin əlaqələndirilməsində ifadə olunur. Bu baxımdan insan hüquq və azadlıqlarının məhkəmə təminatı ilə bağlı dövlətdaxili praktikanın inkişaf etdirilməsinə xüsusi önəm verilməsi məqsədəmüvafiq hesab olunur. Şübhəsiz ki, bu sahədə beynəlxalq məhkəmə qurumlarının, xüsusilə, Avropa Məhkəməsinin təcrübəsinin öyrənilməsi və istifadəsi mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi dövlət hakimiyyəti orqanlarının fəaliyyətində bir sıra müsbət dəyişikliklərə yol açacaq. Bununla yanaşı, beynəlxalq normaların milli səviyyədə tətbiqi məhkəmələrdə cinayət, inzibati və mülki işlərə baxılması və məhkəmə qərarlarının icrası vəziyyəti və gələcək inkişafı üçün yenilənmə və mövcud qanunvericilik bazasının məzmun və mahiyyətinin yenidən işlənib hazırlanmasını tələb edir. Fikrimizcə, tədqiqat işinin nəticələri konstitusiya, mülki hüquq, mülki-prosessual hüquq, dövlət və hüquq nəzəriyyəsi elmləri üçün xüsusi maraq kəsb edir.

**Tədqiqatın praktiki əhəmiyyəti** insan hüquqları haqqında biliklərin sistemləşdirilməsi, genişləndirilməsi və dərinləşdirilməsi ilə bağlıdır. Müəllif müvafiq sferada qanunvericilik bazasının təkmilləşdirilməsini, dövlət hakimiyyəti orqanları tərəfindən insan hüquqlarının realizəsi istiqamətində mexanizmlərin işlənib hazırlanmasını, məhkəmələrin işlərə baxılması zamanı beynəlxalq normalara, xüsusilə də Avropa İnsan Hüquqları Məhkəməsi presedentlərinə daha çox istinad etməsini təklif edir. Tədqiqat işindən insan hüquqları, beynəlxalq hüquq, konstitusiya hüququ, məhkəmələrdə işlərə baxılması praktikası, hüquqi yardım göstərilməsi işində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi BDU-nun "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında geniş müzakirə edilmiş və əsas müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin dissertasiyanın mövzusu üzrə AR və Ukrayna Respublikasının, Rusiya Federasiyasının, Moldovanın, Qazaxıstanın, Türkiyənin nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (Azərbaycan, ingilis və rus) dərc etdirdiyi elmi əsərlərdə, o cümlədən beynəlxalq elmi konfransın materiallarında öz əksini tapmışdır.

**Tədqiqatın strukturu** giriş, beş fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə seçilmiş mövzunun aktuallığı əsaslandırılır, onun elmi cəhətdən işlənmə dərəcəsi işıqlandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilir, işin elmi yeniliyini göstərən və müdafiəyə çıxarılan əsas müddəalar formalaşdırılır və işin nəzəri, təcrübi əhəmiyyəti açıqlanır.

Dissertasiya işinin birinci fəsli **"İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin mahiyyəti, xarakteri və mexanizmləri"** adlanır və iki paraqrafdan ibarətdir.

Həmin fəslin **"İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin anlayışı və məzmunu"** adlı birinci paraqrafında insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi problemini tədqiq edərkən bir neçə məsələyə aydınlıq gətirilir. Belə ki, ilk növbədə, beynəlxalq hüquq normalarının realizəsi, sonra isə insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi və realizə mexanizmləri məsələlərinə ətraflı şəkildə toxunulması məqsədəuyğun hesab olunur. Burada qeyd olunur ki, realizə ifadəsi latın dilində olan "re-alis" sözündən götürülmüş, hərfi mənada əşyavi və ya əşyalaşdırmaq mənasını ifadə edir. Ümumiyyətlə, realizə hüququn hərəkətinin və ya təsirinin əsas forması olmaqla sosial nəticənin əldə edilməsi vasitəsidir. Realizə anlayışı ilə müəyyən proses əhatə olunur, bu proses beynəlxalq hüquq aktında təsbit edilmiş normanın həyata keçirməsinə, həmin normada nəzərdə tutulmuş siyasi, sosial və hüquqi məqsədlərin nail olunmasına yönəlmiş vasitələrin və tədbirlərin sistemidir. Bu tədbirlər və vasitələrə beynəlxalq hüquq normasında təsbit olunan tələblərin həyata keçirilməsinin tənzimləməsi qaydası (və ya reqlamentasiyası), beynəlxalq hüququn normalarının icrasına kömək

göstərilməsi, beynəlxalq hüquq subyektlərinin hüquqauyğun davranışı və s. aiddir.

Ümumiyyətlə, insan hüquqlarının müdafiəsi beynəlxalq və milli hüquqi səviyyələrdə həyata keçirilir. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi insan hüquq və azadlıqları, bu hüquq və azadlıqların həyata keçirilməsi üzrə dövlətlərin öhdəlikləri, həmçinin pozulmuş ayrı-ayrı insan hüquqlarının bilavasitə müdafiəsi və bu sahədə dövlətlərin özünün beynəlxalq öhdəliklərini yerinə yetirməsi üzrə beynəlxalq nəzarət mexanizmlərini təsbit və müəyyən edən hüquqi norma və prinsiplərin məcmusudur.

Dissertasiya işinin birinci fəslinin ikinci paraqrafı **”İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üzrə beynəlxalq və dövlətdaxili hüququn əlaqəsi problemi: xarici ölkələrin praktikasının müqayisəli təhlili”** adlanır. Müəllifin fikrincə, beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi problemi müasir dövr üçün həm nəzəri, həm də praktiki cəhətdən aktualdır. Beynəlxalq və milli hüququn əlaqəli şəkildə inkişafı, qloballaşma, inteqrasiya prosesləri bu aktuallığı şərtləndirən amillərdəndir. İnsan hüquqlarının müdafiəsinə gəldikdə isə onu qeyd etmək lazımdır ki, insan hüquq və azadlıqlarının effektiv şəkildə müdafiəsi beynəlxalq və milli hüququn qarşılıqlı əlaqəsi fonunda həyata keçirilir. Heç bir dövlət beynəlxalq-hüquqi normaların köməyi olmadan insan hüquqlarının səmərəli müdafiəsini realizə edə bilməz. Belə realizə prosesində insan hüquqlarının müdafiəsi üzrə qabaqcıl dövlətlərin təcrübəsindən yararlanmaq da mühüm əhəmiyyət kəsb edir. Dissertasiyada , insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üzrə beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi problemini insan hüquqlarının müdafiəsi üzrə qabaqcıl dövlətlərin təcrübəsinə müraciət etməklə araşdırılması məqsədəuyğun hesab edilmişdir.

Beynəlxalq hüquq dövlətdaxili hüquqla sıx əlaqədə fəaliyyət göstərir. Bu, ilk növbədə onunla bağlıdır ki, dövlət, beynəlxalq sistemə daxil olarkən öz üzərinə müəyyən öhdəliklər götürür, həmin öhdəliklər beynəlxalq hüquq normalarında təsbit edilir və müvafiq dövlətin dövlətdaxili münasibətlər sferasında öz əksini tapır. Beynəlxalq hüquq dövlətlərin üzərinə ümumi şəkildə müəyyən olunmuş öhdəliklər qoyur, milli hüquq isə həmin beynəlxalq öhdəliklərin icrasının təmin edilməsi üzrə orqan və vəzifəli şəxslərin dairəsini müəyyənləşdirir.

Dissertasiya işinin ikinci fəsli **“İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin beynəlxalq normativ**

**mexanizmləri (universal və regional beynəlxalq hüquqi aktlar)"** adlanır və üç paraqrafdan ibarətdir.

Həmin fəslin **"İnsan hüquqları sahəsində universal xarakterli beynəlxalq sənədlər"** adlanan birinci paraqrafında qeyd edilir ki, Birləşmiş Millətlər insan hüquqlarına hörmət edilməsini Təşkilatın əsas məqsədlərinə daxil etmişdilər. Müəllif qeyd edir ki, Nizamnaməyə görə, Təşkilatın məqsədi dini, dili, cinsi və irqindən asılı olmayaraq bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsi və genişləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaqdır (maddə 1.3). Qeyd edilən məqsədin realizəsinə yönəlmiş daha konkret müddəalar Nizamnamənin növbəti 3 qrup normasında təsbit olunmuşdur: 1) beynəlxalq iqtisadi və sosial əməkdaşlıqla bağlı normalarda (maddə 55 və 56); 2) beynəlxalq qəyyumluq sistemi üzrə normalarda (maddə 76 (c bəndi)); BMT orqanlarının müvafiq sferada funksiya və səlahiyyətləri ilə bağlı normalarda (maddə 13.1 və maddə 62.2 və 3; maddə 68). Beynəlxalq iqtisadi və sosial əməkdaşlıqla bağlı normaları özündə əks etdirən birinci qrup müddəalar xüsusi əhəmiyyət kəsb edir.

İddiaçı araşdırır ki, Nizamnamənin 55-ci maddəsinə əsasən millətlər arasında xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyin etməsi prinsipinə hörmət əsasında sülh və dostluq münasibətləri üçün zəruri olan sabitlik və əmin-amanlıq şəraitini yaratmaq məqsədilə BMT irqinə, cinsinə, dilinə və dininə fərq qoymadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək verdiyi izah olunur. Göstərilən məsələləri bilavasitə inkişaf etdirməklə Nizamnamənin 56-cı maddəsində qeyd edilir ki, Təşkilatın bütün üzvləri öz üzərilərinə öhdəlik götürürlər ki, 55-ci maddədə göstərilmiş məqsədlərə nail olmaq üçün Təşkilatla əməkdaşlıqda birgə və müstəqil hərəkət etsinlər.

Dissertasiya işinin ikinci fəslinin **"İnsan hüquqları sahəsində regional xarakterli beynəlxalq müqavilələr"** adlanan ikinci paraqrafında iddiaçı qeyd edir ki, Avropa İnsan hüquqları Konvensiyası bir sıra mühüm əhəmiyyət kəsb edən xüsusiyyətlərə malikdir. Məhz bu Konvensiya hüquqi cəhətdən məcburi olan ilk regional insan hüquqları məcəlləsidir. İnsan hüquqlarının müdafiəsi üzrə əsas beynəlxalq müqavilələr, o cümlədən Avropa insan hüquqları Konvensiyası hüquqi müdafiə vasitələrindən istifadə və fərdi şikayətlər imkanını beynəlxalq səviyyədə bəyan edir.

İddiaçının fikrincə, 4 noyabr 1950-ci ildə Roma şəhərində bağlanmış Avropa insan hüquqları Konvensiyası öz yurisdiksiyası hüdudlarında olan hər kəsə Konvensiyada təsbit olunan hüquq və azadlıqların realizəsini təmin edən dövlətləri birləşdirir, həmçinin

dövlətdaxili hüquqi müdafiə vasitələri ilə insan hüquqlarının real və effektiv müdafiəsini təmin edir. Konvensiyanın əsas məqsədi Konvensiya iştirakçısı olan dövlətlər tərəfindən riayət edilməli olan müəyyən olunmuş beynəlxalq standartların müəyyənləşdirilməsidir. İştirakçı-dövlətlər Konvensiyada təsbit olunan hüquq və azadlıqların həyata keçirilməsini təmin etməlidirlər.

Konvensiyada təsbit olunan hüquq və azadlıqların realizəsini Avropa İnsan hüquqları Məhkəməsi həyata keçirir. Avropa Məhkəməsi Konvensiya normalarının təfsir və tətbiqi ilə məşğul olur. Bu məsələ Konvensiyanın 32-ci maddəsində təsbit edilmişdir. Avropa Məhkəməsi dövlətdaxili hüquqa və müvafiq olaraq iştirakçı-dövlətlərin hüquq tətbiqi praktikasına birbaşa təsir göstərir.

Avropada insan hüquq və azadlıqlarının müdafiəsinin əsas müqavilə mexanizmlərindən ikincisi Avropa Sosial Xartiyasıdır. Avropada insan hüquqlarının müdafiəsi üzrə müqavilə mexanizmlərindən biri də 26 noyabr 1987-ci il tarixli "İşgəncələrin və qeyri-insani, yaxud insan ləyaqətini alçaldan rəftarın və ya cəzaların qarşısının alınması haqqında" Avropa Konvensiyasıdır.

Dissertasiya işinin ikinci fəslinin **"İnsan hüquqları sahəsində ikitərəfli beynəlxalq əməkdaşlıq (Azərbaycan Respublikası timsalında)"** adlanan üçüncü paraqrafında doktorant, insan hüquqlarının müdafiəsi sferasında universal və regional beynəlxalq sənədlərlə yanaşı, ikitərəfli əsasda bağlanmış beynəlxalq müqavilə və ümumiyyətlə ikitərəfli əməkdaşlıq da mühüm əhəmiyyət kəsb etdiyini qeyd edir. Bu paraqrafda AR-in insan hüquq və azadlıqlarının müdafiəsi sferasında beynəlxalq təşkilatlar və ayrıca dövlətlərlə ikitərəfli əsasda beynəlxalq əməkdaşlığı və bu əməkdaşlığın insan hüquqlarının realizəsi mexanizmlərinə təsir imkanları tədqiq olunur.

Doktorantın fikrincə, ilk öncə, AR-in beynəlxalq təşkilatlarla, xüsusilə də BMT və onun orqanları ilə əməkdaşlığına diqqət yetirək. Azərbaycan minilliyin inkişaf məqsədlərini çox qısa zamanda icra etmiş və tamamilə yeni bir inkişaf mərhələsinə qədəm qoymuş dövlətdir. Azərbaycan hazırda bir çox iri iqtisadi layihələrin həm təşəbbüskarı, həmçinin birbaşa iştirakçısıdır. Belə layihələr nəinki Azərbaycana, həmçinin regionun inkişafına əhəmiyyətli təkan verir. Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri, Trans Avrasiya Super İnformasiya Magistrali və Bakı-Tbilis-Qars kimi irimiqyaslı layihələr BMT-nin hesabatlarında da qlobal inkişaf hədəflərinə adekvat addımlar kimi qiymətləndirilir. Azərbaycan insan hüquq və azadlıqlarının müdafiəsi sferasında beynəlxalq

hüquqi sənədlərə qoşulmaqla bərabər, həmin sənədlərin realizəsi istiqamətində BMT-nin müvafiq qurumları, ATƏT, Avropa Şurası, Avropa ittifaqı və MDB kimi beynəlxalq təsisatlarla əməkdaşlıq edir. İnsan hüquqlarının müdafiəsi sahəsində ölkəmiz BMT-nin İnsan hüquqları üzrə Ali komissarlığı ilə effektiv şəkildə əməkdaşlıq edir. Bu əməkdaşlıq əvvəlcə 1998-2000-ci illəri əhatə etmiş "İnsan hüquqlarına dəstək və müdafiə üzrə imkanların artırılması" layihəsi çərçivəsində icra edilmişdir. 2001-ci ildə tərəflər arasında yeni layihə sənədi imzalandı. Bu sənəd əsasən insan hüquqlarının müdafiəsi istiqamətində müxtəlif seminar, treninq və konfransların keçirilməsini ehtiva edirdi. 2006-cı ildə Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasına üzv seçilməyi dissertasiyada yazılmışdır.

Dissertasiya işinin üçüncü fəsli **"İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin beynəlxalq təşkilati mexanizmləri (universal və regional beynəlxalq təşkilatlar)"** adlanır və dörd paraqrafdan ibarətdir.

Həmin fəslin **"Universal təşkilati mexanizmlər (BMT və onun insan hüquqları sahəsində əsas qurumları)"** adlanan birinci paraqrafında qeyd edilir ki, İnsan hüquqları sferasında beynəlxalq hüquq normalarının realizəsində universal təşkilati mexanizmlər, əsasən də BMT-nin təşkilati mexanizmləri xüsusi rol oynayır. Ümumiyyətlə, BMT-nin insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti bu istiqamətdə konkret orqanların, müqavilə orqanlarının və ixtisaslaşmış təsisatların fəaliyyətindən ibarətdir.

İddiaçı qeyd edir ki, BMT Nizamnaməsində qeyd edilir ki, Təşkilatın məqsədi din, dil, cins və irqindən asılı olmayaraq bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsi və genişləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaqdır (md. 1.3). Nizamnaməyə əsasən insan hüquqlarına riayət olunması dövlətlərin daxili işi deyil, BMT orqanları müvafiq məsələləri müzakirə edə bilər. BMT-nin insan hüquqlarının müdafiəsi sahəsində əsas orqanı 1946-cı ildə yaradılmış İnsan Hüquqları Komissiyasıdır. Bu orqan Nizamnamənin 68-ci maddəsinə müvafiq olaraq təsis edilmişdir. Həmin maddədə qeyd edilir ki, İqtisadi və Sosial Şura iqtisadi və sosial sahələrdə və insan hüquqlarına dəstək vermək üçün komissiyalar, habelə öz funksiyalarının icrası üçün tələb olunan digər bu cür komissiyalar təsis edir.

Doktorant qeyd edir ki, əvvəlcə 9 əsas üzvdən ibarət Komissiya hazırda ECOSOC tərəfindən üç illik müddətə regional kvota əsasında (Afrikadan 15, Asiyadan 12, Latın Amerikası və Karib dənizi hövzəsindən 11, Qərbi Avropa və digər dövlətlərdən 10) seçilən 53 üzv-dövlətin

nümayəndəsindən ibarətdir. Komissiya hər il Cenevrə şəhərində iclas keçirir. Komissiyanın ilk əhatəli və vacib işi Ümumdünya İnsan hüquqları Bəyannaməsinin hazırlanması olmuşdur. Komissiya insan hüquqlarının müdafiəsi sahəsində geniş səlahiyyətlərə malikdir. Komissiyanın iclaslarında insan hüquqlarının pozulması faktları ilə bağlı verilmiş ərizələrə baxılır və müvafiq araşdırma aparılır. Komissiya çərçivəsində ayrı-ayrı dövlətlər və qeyri-hökumət təşkilatları insan hüquqlarının müdafiəsi ilə bağlı məsələlər qaldıra bilər.

Dissertasiya işinin üçüncü fəslinin ikinci paraqrafı **“Universal beynəlxalq müqavilələrin icrasına nəzarət orqanları (müqavilə orqanları)”** adlanır. Müəllif qeyd edir кi, BMT çərçivəsində insan hüquqlarının müdafiəsi sahəsində qəbul edilmiş beynəlxalq konvensiyalar onu ratifikasiya edən və sonradan qoşulan dövlətlər üçün məcburi hüquqi qüvvəyə malikdir. Həmin dövlətlər müvafiq konvensiyalara qoşulduqdan sonra öz qanunvericilik və məhkəmə sistemində əhəmiyyətli dəyişikliklər etmişdir. Respublikamız da həmin dövlətlərin sırasındadır.

İddiaçının fikrincə, bununla yanaşı, BMT-nin bəzi konvensiyaları həmin sənədlərin icrasına nəzarət üzrə mexanizmlərin (komitə, orqan və s.) yaradılması və fəaliyyətini nəzərdə tutur. Belə orqanları adətən müqavilə (ing. “treaty bodies”) orqanları adlandırırlar. Müqavilə orqanları insan hüquqlarının pozulmasına dair müxtəlif mənbələrdən əldə olunan məlumatlar əsasında fəaliyyət həyata keçirirlər. İl ərzində müqavilə orqanları dövlətlərin 100-dən çox məruzəsini nəzərdən keçirir və müvafiq tövsiyələr təqdim edirlər.

BMT sistemində növbəti müqavilə orqanları fəaliyyət göstərir: İnsan Hüquqları Komitəsi; İqtisadi, sosial və mədəni hüquqlar Komitəsi; İşgəncələr əleyhinə Komitə; İrqi ayrı-seçkiliyin ləğvi üzrə Komitə; Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə; Uşaq hüquqları Komitəsi; Əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitə; Əlillərin hüquqları üzrə Komitə; Bütün Şəxslərin məcburi itmələrdən müdafiəsi üzrə Komitə. Bütün müqavilə qurumları inzibati və maliyyə dəstəyini Müqavilələrdən, Müqavilələrə dair İşlər üzrə İdarədən və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Bölmələrindən alırlar.

Dissertasiya işinin üçüncü fəslinin üçüncü paraqrafı **“BMT-nin ixtisaslaşmış təsisatları və insan hüquqlarının müdafiəsi problemi”** adlanır. Müəllif hesab edir ki, BMT-nin insan hüquqları sahəsində funksiya və səlahiyyətləri son dərəcə müxtəlifdir. Onlar təkliflər qəbul edir, qərarlar çıxarır, beynəlxalq konfranslar çağırır, konvensiya layihələri hazırlayır,

tədqiqatlar aparır, bəzi ölkələrə konsultativ və texniki kömək göstərirlər. Bəzi hallarda onlar, həmçinin BMT Nizamnaməsi və beynəlxalq müqavilələrlə götürülmüş öhdəliklərə dövlətlər tərəfindən əməl edilməsinə nəzarət funksiyalarını da həyata keçirirlər. Faktiki olaraq BMT-nin əsas və çoxsaylı köməkçi orqanları insan hüquqları məsələləri ilə bu və ya digər dərəcədə məşğuldur.

İddiaçı qeyd edir ki, BMT Nizamnaməsinin 60-cı maddəsinə müvafiq olaraq, insanın əsas hüquq və azadlıqlarına ümumi hörmət və riayət edilməsinə yardım üzrə Təşkilatın funksiyalarının yerinə yetirilməsinə cavabdehliyi əsasən BMT-nin Baş Məclisi və onun rəhbərliyi altında ECOSOC daşıyır. İnsan Hüquqları sahəsində Baş Məclisin səlahiyyətləri BMT Nizamnaməsinin 13-cü maddəsində müəyyənləşmişdir. Bu maddədə qeyd edilir ki, "Baş Məclis irq, cins, dil və dinindən asılı olmayaraq, hər kəsin insan hüquq və əsas azadlıqlarının həyata keçirməsinə yardım sahəsində beynəlxalq əməkdaşlığa kömək məqsədilə tədqiqatlar təşkil edir və tövsiyələr verir". BMT-nin ixtisaslaşmış təsisatları anlayışının müəyyən edilməsində hüquq ədəbiyyatlarında fikir müxtəlifliyi mövcuddur. Bir tərəfdən, bu qurumlar müstəqil təşkilatlar kimi, digər tərəfdən isə BMT-yə aid edilir və BMT Nizamnaməsinin konkret maddələrinə görə səciyyələndirilir.

Dissertasiya işinin üçüncü fəslinin dördüncü paraqrafı **"Regional təşkilati mexanizmlər (Avropa, Amerika, MDB, Afrika regionları)"** adlanır. Burada insan hüquq və azadlıqlarının realizəsinin regional təşkilati mexanizmləri geniş olduğu göstərilir. Həmin mexanizmlər insan hüquqlarının realizəsində özünəməxsus rol oynayırlar. Regional təşkilati mexanizmlərin fəaliyyətinə ayrı-ayrı regionlar üzrə baxılmasını məqsədəuyğun hesab edilir.

Müəllif, ilk növbədə Avropa regionundan başlayır. O, qeyd edir ki, Avropa Şurası 5 may 1949-cü ildə 10 Avropa dövlətinin: Belçika, Böyük Britaniya, Danimarka, İrlandiya, İsveç, İtaliya, Lüksemburq, Hollandiya, Norveç və Fransanın imzaladıqları Avropa Şurasının Nizamnaməsinə əsasən təsis edilib. Avropa Şurasının söykəndiyi əsas prinsiplər demokratiya, insan hüquqları və qanunçuluğa əməl edilməsidir. Avropa Şurası hökumətlərarası beynəlxalq təşkilatdır. Avropa Şurası hazırda Avropada 47 dövləti birləşdirən ən yaşlı siyasi təşkilat hesab edilir. Bu dövlətlərdə yaşayan əhalinin sayı 800 milyondan çoxdur. Avropa Şurası üzv dövlətlərin Qeyri-Hökumət Təşkilatları və Beynəlxalq Qeyri-Hökumət Təşkilatları ilə sıx əməkdaşlıq edir. 400-dən artıq QHT Avropa Şurasında konsultativ statusa malikdir. Bununla yanaş, Avropa Şurasında həmçinin

müşahidəçi statusu ilə iştirak edən dövlətlər də vardır. Bunlar ABŞ, Kanada, Yaponiya, Meksika, Vatikan və İsrail dövlətləridir.

İnsan hüquqlarının realizəsinin Afrika sistemi bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir. İnsan hüquqlarının realizəsi üzrə əsas təşkilati mexanizm Afrika Birliyi Təşkilatıdır (2001-ci ildən Afrika İttifaqı). Bundan başqa, İnsan və xalqların hüquqları üzrə Afrika Komissiyası insan hüquqlarının müdafiəsində mühüm rol oynayır. Afrikada insan hüquqlarının realizəsi üzrə digər institusional mexanizm İnsan və xalqların hüquqları üzrə Afrika Məhkəməsidir. Məhkəmənin yurisdiksiyasını tanıyan dövlətin vətəndaşları, həmçinin dövlətlər Afrika Xartiyasında nəzərdə tutulan hüquq və azadlıqların pozulması ilə bağlı Məhkəməyə birbaşa müraciət edə bilərlər.

Dissertasiya işinin dördüncü fəsli **"Dövlət və qeyri-dövlət orqanlarının insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üzrə fəaliyyəti"** adlanır və beş paraqrafdan ibarətdir.

Dissertasiya işinin dördüncü fəslinin **"İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin dövlətdaxili normativ-hüquqi mexanizmləri"** adlanan birinci paraqrafında qeyd edilir ki, beynəlxalq-hüquqi tənzimetmə geniş anlamda iki fazanı əhatə edir: 1) hüquq yaradıcılığı (burada beynəlxalq hüquq normaları formalaşır) və hüquq tətbiqi (burada həmin normaların həyata keçirilməsi prosesi gedir). Beləcə, beynəlxalq hüquq normalarının implementasiyası dedikdə, beynəlxalq hüquq normalarının ünvanlandığı subyektlər tərəfindən həmin normaların müddəalarına müvafiq şəkildə hərəkət etdiyi prosesdir. Beynəlxalq hüquq normalarının bütöv, hərtərəfli şəkildə realizəsi üçün dövlətlər tərəfindən əlavə hüquqi və təşkilati tədbirlərin tətbiqi tələb olunur.

Müəllif hesab edir ki, beynəlxalq hüquq normalarının realizəsi həmin normaların qəbul edilməsi ilə müqayisədə daha mürəkkəb prosesdir. Bu prosesin düzgün şəkildə icrası beynəlxalq hüququn subyekti olan dövlətlər tərəfindən beynəlxalq və milli səviyyədə həyata keçirilən təşkilati və hüquqi tədbirlərin məcmusundan ibarətdir. Dövlətlərin istifadə etdiyi təşkilati və normativ-hüquqi mexanizmlərin effektivliyi implementasiya mexanizminə birbaşa təsir göstərir. Əvvəlki paraqraflarda qeyd etmişdik ki, beynəlxalq hüquq normalarının implementasiyası beynəlxalq və dövlətdaxili səviyyələrdə həyata keçirilir. Hər iki səviyyədə təşkilati və normativ-hüquqi mexanizmlər fərqləndirilir. Burada isə dövlətdaxili normativ-hüquqi və təşkilati mexanizmlərin məzmunu həm beynəlxalq

hüquq normasının xarakterindən, həm də konkret dövlətin milli hüquq sistemindən asılı olduğu göstərilib.

Dissertasiya işinin dördüncü fəslinin **"Qanunverici hakimiyyətin insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üzrə fəaliyyəti"** adlanan ikinci paraqrafında müəllif demokratik ölkədə ali dövlət hakimiyyəti orqanlarının bərabər hüquqlu olduğunu qeyd edir. O, göstərir ki, onlar bir-birinə  tabe olmadan qarşılıqlı asılılıqdadır. Onlardan hər biri həddi bütövlükdə siyasi sistemin demokratizmini əks etdirən müəyyən dərəcədə müstəqilliyə malikdirlər. Hakimiyyətlərin bölünməsi demokratiyanın üzvi ifadəsidir. Hakimiyyətlərin bölgüsü konsepsiyasına müvafiq olaraq, dövlət hakimiyyəti budaqları arasında birincilik qanunverici hakimiyyətə məxsusdur. Hakimiyyətin icra və məhkəmə budaqlarının öz fəaliyyət sahəsi olsa da, onlar qanunun adından və onun icrası naminə fəaliyyət göstərirlər. Qanunvericilik hakimiyyəti, ümumdövlət nümayəndəli orqan, federasiya subyektlərində və siyasi xarakterli muxtariyyətlərdə həmçinin yerli qanunvericilik orqanı tərəfindən həyata keçirilir.

Müəllifin fikrincə, demokratik dövlət quruluşunda ali nümayəndəli və qanunverici orqan parlamentdir. O, xalqın suveren iradəsini ifadə edir, mühüm ictimai münasibətləri qanunlar qəbul edilməsi yolu ilə tənzimləyir, icra hakimiyyəti orqanlarının və ali vəzifəli şəxslərin fəaliyyətinə nəzarəti həyata keçirir. Dövlətin digər ali orqanlarının təşkil edilməsi, məsələn, bəzi ölkələrdə prezidentin seçilməsi, hökumətin yaradılması, konstitusiya məhkəməsinin hakimlərinin təyin edilməsi, hökumətin bağladığı beynəlxalq müqavilələrin ratifikasiya edilməsi, amnistiya elan edilməsi və s. də parlamentin səlahiyyətlərinə aiddir. Qanunverici hakimiyyət xalqın öz nümayəndələrinə verdiyi, kollegial yolla qanunvericilik aktlarının qəbulunu həyata keçirən, habelə icraedici aparatı, başlıca olaraq maliyyə sferasında müşahidə və ona nəzarət edən dövlət hakimiyyətidir.

Dissertasiya işinin dördüncü fəslinin **"İcra hakimiyyəti orqanlarının insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üzrə fəaliyyəti"** adlanan üçüncü paraqrafında icra hakimiyyəti orqanının təşkilati müstəqilliyi onun başqa bir dövlət orqanının tərkibində struktur vahidi kimi olmadığını ifadə etdiyi göstərilir. Onun fikrincə, funksional müstəqillik həmin orqanların icraedici fəaliyyəti həyata keçirməsində öz əksini tapır. Hüquqi müstəqillik icra hakimiyyəti orqanının ayrıca inzibati-hüquqi statusa malik olmasında ifadə olunur. İcra hakimiyyəti müxtəlif sahələrdə (iqtisadi, sosial-mədəni, inzibati-siyasi) həyata keçirilir. Bu da öz növbəsində müxtəlif icra hakimiyyəti

orqanlarının olmasını tələb edir. Buna görə də icra hakimiyyəti orqanlarını onları xarakterizə edən əlamətlərə görə aşağıdakı kimi təsnifləşdirmək məqsədəuyğundur: Səlahiyyətlərinin xarakterinə görə icra hakimiyyəti orqanları ümumi, sahəvi və funksional (xüsusi) səlahiyyətli orqanlara bölünür. Ümumi səlahiyyətli icra hakimiyyəti orqanları dövlət idarəetməsinin bütün sahələrinə ümumi rəhbərliyi həyata keçirir. Buraya AR-in Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, rayon (şəhər) icra hakimiyyətləri aiddir.

Mərkəzi icra hakimiyyəti orqanları ilə bərabər insan hüquq və azadlıqlarının müdafiəsi məsələsi yerli icra hakimiyyəti orqanlarının fəaliyyətində də prioritet istiqamətdir. Yerlərdə icra hakimiyyətlərinin başçıları öz səlahiyyətlərini insan hüquqlarının, qanuni maraqlarının müdafiəsi, fəaliyyət göstərdiyi konkret ərazdə yaşayan əhalinin iqtisadi və sosial durumunu, rifahını yaxşılaşdırmaq məqsədilə iqtisadi, ictimai və mədəni sferaların inkişafının təmin olunmasına prinsipləri əsasında həyata keçirirlər.

Dissertasiya işinin dördüncü fəslinin **"İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsində məhkəmə hakimiyyətinin rolu"** adlanan dördüncü paraqrafında hər bir dövlətdə məhkəmələr ədalət mühakiməsini həyata keçirdiyi yazılıb. Müəllifin fikrincə, ədalət mühakiməsi – mülki, cinayət, inzibati və digər sahələr üzrə pozulmuş və ya pozulması ehtimal olunan hüquq normaları ilə bağlı mübahisələrə baxılması və həlli üzrə prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmələrin fəaliyyətidir. Tarixi təcrübə göstərir ki, məhkəmə araşdırması, mübahisələrin həlli və həqiqətin üzə çıxarılması yolunda ən yaxşı vasitədir. Lakin bu proses o zaman baş tutur ki, həqiqətən də məhkəmə heç bir strukturdan asılı olmasın, tam müstəqil və qərəzsiz olsun. Belə şərtlər daxilində məhkəmə, insan hüquq və azadlıqlarının effektiv qaranına çevrilir. Sivil cəmiyyətlərdə bütün hüquq sistemində mərkəzi rol məhkəmələrə məxsusdur. Məhz məhkəmələr əsl haqq-ədaləti həyata keçirirlər. Məhkəmənin nüfuzu və rolu nə qədər böyükdürsə, onun icra və qanunverici hakimiyyətdən asılılığı da bir o qədər azdır, belə olduqda ölkədə qanunçuluq və demokratiyanın səviyyəsi də yuxarı olur, insan hüquq və azadlıqları da normal səviyyədə təmin olunur.

Dissertasiyada qeyd edilir ki, məhkəmə hakimiyyəti hakimiyyətin digər qollarına münasibətdə özünün müstəqilliyi, yüksək statusu, səlahiyyətliliyi, avtoriteti ilə cinayət mühakimə sferası da daxil olmaqla, şəxsin konstitusion hüquq və azadlıqlarını təmin etməlidir. Müasir hüquq müdafiə mexanizmində insan hüquq və azadlıqlarının müdafiəsinin əsas

forması məhkəmələrin fəaliyyətidir. Ümumiyyətlə, məhkəmə hakimiyyətinin təyinatı insan hüquq və azadlıqlarının müdafiəsi, qanunverici və icra hakimiyyətinin aktlarının konstitusiyaya uyğunluğu, qanun və digər normativ aktların icrası və tətbiqi zamanı qanunçuluq və ədalətə riayət olunmasından ibarətdir.

Dissertasiya işinin dördüncü fəslinin **“Qeyri-dövlət orqanlarının insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi sahəsində fəaliyyəti”** adlanan beşinci paraqrafında qeyd edilir ki, müvəkkilin həyata keçirdiyi fəaliyyətin tərkib hissələrindən biri də məhkumların əfvi ilə bağlı AR Prezidentinə təkliflər verilməsindən ibarət olmuşdur. Müvəkkil əfv xahişi ilə müraciət etmiş məhkumların və ya onların ailə üzvlərinin ərizələri qanunvericiliklə müəyyən edilmiş qaydada baxır və Müvəkkilin fəaliyyəti dövründə onun vəsatəti əsasında yüzlərlə məhkum əfv olunmuşdur. Müvəkkil eyni zamanda əfv fərmanlarına əsasən məhkumların cəzaçəkmə müəssisələrindən azadlığa buraxılması prosesində də müntəzəm olaraq iştirak edir.

İddiaçı qeyd edir ki, vəkillik yeganə institutdur ki, ədalət mühakiməsi həyata keçirilərkən ona konstitusiya səviyyəsində, dövlətlə eyni hüdudda bərabərlik və dövlətdən müstəqillik prinsipi şamil olunur. Bu da onun insan hüquqlarının müdafiəsində nə qədər mühüm rola malik olmasını bir daha təsdiq edir. Bundan başqa, vəkillik fəaliyyətinin özünüidarəetmə prinsipi də insan hüquqlarının müdafiəsi sistemində vəkillik institutunun mühüm rolunu təmin edir.

Doktorantın fikrincə, bələdiyyələrin insan hüquqlarının realizəsi sferasında fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Belə ki, son vaxtlar Respublikamızda insan hüquqlarının müdafiəsi sahəsində qəbul edilən normativ-hüquqi aktların həyata keçirilməsində bələdiyyələr öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirə bilir.

Müəllif hesab edir ki, qeyri-hökumət təşkilatları insan hüquqları sahəsində vacib rol oynayır. Həqiqətən də, müasir cəmiyyətdə bunlar sadəcə vətəndaş cəmiyyətinin ünsürü deyil, eyni zamanda, insan hüquqlarının yaşanması və qorunmasında zəruri mexanizm kimi qarşımıza çıxır. QHT-lər vətəndaş cəmiyyətini möhkəmləndirir, ictimai rəyin formalaşmasına və güclənməsinə xidmət edir. Bunlar olmadan isə insan hüquqlarının reallaşması mümkün deyildir. KİV-in belə yollardan istifadə edərək, siqnallar yollayaraq, müzakirələr keçirərək, öyrədərək, vəzifəli şəxsləri hüquq pozmaların aradan qaldırması üzrə tədbir görməyə məcbur edərək bütün başqa institutlara və mexanizmlərə təsir edirlər. Ölkədə qanun-qaydanın qurulmasında KİV-in funksionallığı və operativliyindən

çox şey asılıdır. Onlar insanın öz ləyaqətini dərk etməsinə, eyniləşdirməyə və insanların mədəniyyətinə bilavasitə və dolayı yolla təsir edirlər. KİV-in humanitar mexanizminin effektivliyində jurnalistlərin prinsipiallığı xüsusi rolu oynayır, həmçinin, jurnalist cəmiyyəti belə keyfiyyətləri hansı şəkildə dəstəkləməyə çalışır. Bu keyfiyyətlər – KİV-in humanitar mexanizminin mənəvi cəhətdən-əxlaqlı xüsusiyyətidir. Onlar jurnalistə tez-tez qeyri-rəsmi hakim və prokuror rolunu oynamağa icazə verirlər.

Dissertasiya işinin beşinci fəsli **"Azərbaycan Respublikasında insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üzrə milli qanunvericiliyin təkmilləşməsi tendensiyası"** adlanır və iki paraqrafdan ibarətdir.

Dissertasiya işinin beşinci fəslinin **"İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının Azərbaycan Respublikası qanunvericiliyinə implementasiyasının nəzəri və praktiki xüsusiyyətləri"** adlanan birinci paraqrafında qeyd edilir ki, insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının AR qanunvericiliyinə implementasiyasının tədqiqi zamanı növbəti məsələlərin araşdırılması məqsədəuyğun hesab edilir. Beynəlxalq hüquq normalarının implementasiyasının tarixi aspektləri, implementasiyanın anlayışı və fəaliyyət prosesi, milli və beynəlxalq-hüquqi implementasiya və nəhayət milli qanunvericiliyimizdə beynəlxalq hüquqi normaların, xüsusilə də insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq hüquq normalarının implementasiya xüsusiyyətlərinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

İddiaçının fikrincə, bir tərəfdən qloballaşma və inteqrasiya prosesləri, xalqlar və dövlətlər arasında qarşılıqlı münasibətlərin genişlənməsi və mürəkkəbləşməsi, digər tərəfdən də beynəlxalq münasibətlərdə hüququn rolunun güclənməsi ona gətirib çıxarmışdır ki, müasir dünyada heç bir dövlət beynəlxalq sistemlə aktiv şəkildə qarşılıqlı təsirdə olmadan mövcud ola bilmir. Beynəlxalq arenada fəallıq və konkret beynəlxalq problemlərin həllində iştirak dövlətləri bir-birləri ilə siyasi və digər münasibətlərə daxil olmağa, beynəlxalq müqavilələr bağlamağa sövq edir. Belə münasibətlərdə dövlətlər nəinki öz milli maraqlarını nəzərə alır, həmçinin beynəlxalq hüququn norma və prinsiplərinə də riayət edirlər. Belə olan halda dövlətlər beynəlxalq-hüquqi qaydalara zidd olmayan dövlətdaxili hüquq sisteminə malik olmalıdır. Beynəlxalq və milli hüququn qarşılıqlı əlaqəsindən müvafiq dövlətin daxili hüquq sisteminin effektiv fəaliyyəti asılıdır. Daxili hüququn zamanın tələblərindən geri qalması ciddi beynəlxalq nəticələrə gətirib çıxara bilər. Ayrı-ayrı dövlətlərin hüquq sistemləri sadəcə mövcud olmur. Öz ölkəsinin sosial münasibətlərini

tənzimləyərkən onlar bir-birləri ilə müəyyən ünsiyyətə daxil olur. Bu ünsiyyətin forma və xarakteri müxtəlifdir.

Dissertasiya işinin beşinci fəslinin **"İnsan hüquqları sferasında Azərbaycan Respublikası qanunvericiliyinin təkmilləşdirilməsi: beynəlxalq hüquqi standartların nəzərə alınması problemi"** adlanan ikinci paraqrafında göstərilmişdir ki, milli qanunvericiliyimizin insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi nöqteyi-nəzərindən təkmilləşməsi probleminə ətraflı izah verilməsi üçün məsələyə növbəti üç aspektdən yanaşılmalıdır: 1) beynəlxalq hüquq normalarının dövlətdaxili hüquq sistemində yeri; 2) beynəlxalq hüquq normaları və dövlətdaxili hüquq normaları arasında kolliziya probleminin həlli; 3) məhkəmə presedentlərinə hüquqi qüvvə verilməsi məsələsi. İlk növbədə, beynəlxalq hüquq normalarının dövlətdaxili hüquq sistemində yeri və həmin normaların hüquqi qüvvəsi məsələsinə aydınlıq gətirək.

İddiaçı hesab edir ki, qeyd edilən məsələdə həm AR-in, həm də xarici dövlətlərin qanunvericiliyi və praktikası həmcins deyil. Almaniya Konstitusiyasının 25-ci maddəsinə əsasən beynəlxalq hüququn ümumi normaları Federasiya hüququnun tərkib hissəsidir. Həmin normalar qanunlar üzərində üstünlüyə malikdir və federal ərazinin sakinləri üçün bilavasitə hüquq və vəzifələr yaradır. AR-də beynəlxalq hüquq normalarının tətbiqi ilə bağlı mübahisələrin həlli Konstitusiya Məhkəməsinin səlahiyyətindədir. Konstitusiyanın 100-cü maddəsində qeyd edilir ki, beynəlxalq hüquq normalarının fərdlər üçün hüquq və vəzifələr doğurması üzrə hüquqi mübahisə yaranarsa, məhkəmələr Konstitusiya Məhkəməsinin qərarını almalıdır. İsveçrənin Konstitusiyasında beynəlxalq və milli hüquq normalarına dair konkret göstəriş olmasa da, məhkəmə praktikası belə bir qaydanı rəhbər tutur ki, beynəlxalq hüququn normaları ölkə ərazisində birbaşa təsirə malikdir. Hüquqi statusuna görə beynəlxalq hüquq normaları hüquqi qüvvəsinə görə qanunlarla bərabər səviyyədə duran müqavilə normaları ilə bərabərləşdirilir. İsveçrədə beynəlxalq və dövlətdaxili hüquq normaları arasında kolliziya yaranan zaman "sonrakı qanun əvvəlkini ləğv edir" prinsipi əsas götürülür. ABŞ-ın məhkəmə praktikasına nəzər yetirdikdə görürük ki, ümumhüquqi normalar normativ iyerarxiyada sonuncu yeri tutur.

Dissertasiya işinin **nəticə** hissəsində dissertasiya tədqiqi gedişində doktorant tərəfindən işlənib hazırlanmış və dissertasiyanın strukturuna müvafiq olaraq sistemləşdirilmiş əsas nəzəri nəticələrin və təcrübi tövsiyələrin qısa şərhi verilir.

**Dissertasiya tədqiqatının əsas müddəaları müəllif tərəfindən nəşr etdirilmiş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**

1. Azərbaycan Respublikasında yerli özünüidarəetmənin bilavasitə formaları. Qanun, 2010, № 2 (190), s. 120-127

2.Azərbaycan Respublikasında yerli özünüidarəetmənin həyata keçirilməsinin formaları. Qanun, 2010, № 3 (191), s. 115-119.

3.Местный опрос является организационно-юридической формой местного самоуправления. Юрист, А:2010, № 3 (105), с.73-75.

4.Azərbaycan Respublikasında yerli rəy sorgusunun anlayışı və mahiyyəti. "Dövlət və hüquq quruculuğunun aktual problemləri" mövzusunda 11-ci Respublika elmi-praktik konfransının materialları, 1-ci cild 11-12 may 2011- ci il, s. 121-124.

5.Azərbaycan Respublikasında müdafiə sahəsində dövlət idarəçiliyinin inzibati-hüquqi tənzimi məsələləri. "Müstəqilliyimizin iyirminci ili: Azərbaycan hüquq elminin inkişaf istiqamətləri." mövzusunda Respublika elmi-praktik konfransının materialları, 1-ci cild 23 dekabr 2011- ci il, s. 107-108.

6.Yerel yönetimin gerçekleşme şekilleri. Hukuk biliminin güncel sorunları 3-cü Uluslararası kongre bildiri kitabı, Cilt 1(Kamu hukuku), 4-6 mayis 2012, Samsun-Turkiye, s. 201-213.

7.Insan və vətəndaşın hüquq və azadlıqlarının inzibati hüquqi müdafiə formaları. Qloballaşma dövründə insan hüquqları və milli hüquq sistemləri./ 10 dekabr beynəlxalq insan hüquqları gününə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans (13-14 dekabr 2012-ci il), Bakı-2013, s 102-104.

8.Azərbaycan Respublikasında yerli özünüidarənin təşkilati-hüquqi formaları. Monaqrafiya. Bakı-2013, 260 səh.

9.Insan və vətəndaş hüquq və azadlıqlarının Azərbaycan Respublikasının Konstitusiyasında təsbiti. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi analitik və praktik jurnal) № 2 (34), Bakı-2013, s. 70-76.

10.Dövlət idarəçiliyində insan hüquq və azadlıqlarının məhkəmədənkənar təminatları. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi analitik və praktik jurnal) № 3 (35), Bakı-2013, s. 90-98.

11.Понятие реализации международно-правовых норм в области прав человека. Наше права № 4, Харкив-2014, с. 24-31.

12.Dövlət idarəçiliyində insan hüquq və azadlıqlarının müdafiəsi. Nəqliyyat hüququ. (Elmi-nəzəri,təcrübi jurnal) № 4 (37), Bakı-2014, s. 99-115.

13.Insan hüquqları sahəsində beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi analitik və praktik jurnal) № 3 (39), Bakı-2014, s. 127-139.

14.Insan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin xarakterik xüsusiyyətləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi analitik və praktik jurnal) № 4 (40),Bakı-2014, s. 95-107.

15.Международные механизмы реализации международно-правовых норм в области прав человека. Наука и Правоохорона № 4, Киев-2014, с. 5-13.

16.İnzibati məsuliyyət. Tədris proqramı. Bakı-2014, 14 səh.

17.Dövlət qulluğu. Tədris proqramı. Bakı-2014, 21 səh.

18.İnsan hüquqları sahəsində universal təşkilati mexanizmlər (BMT və onun insan hüquqları sahəsində əsas qurumları). Bakı Universitetinin xəbərləri. № 4. Bakı-2014, s. 26-37.

19.İnsan hüquqları sahəsində universal xarakterli beynəlxalq sənədlər. Nəqliyyat hüququ. (Elmi-nəzəri,təcrübi jurnal) № 1 (38), Bakı-2015, s. 78-89.

20.İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi üzrə beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi problemi. Qanun 02 (244), Bakı-2015, s. 28-35.

21.İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsinin beynəlxalq mexanizmləri. Qanun 03(245), Bakı-2015, s. 17-24.

22.Avropa insan hüquqları hüququ. Dərs vəsaiti. Bakı-2015, 127 s.

23.Сущность, характер и механизм реализации международно-правовых норм в области прав человека. Евразийский юридический журнал. № 2 (81), Москва-2015, с 39-42.

24.Понятие и содержание реализации международно-правовых норм в области прав человека. Право и Суспильство № 3, Днипропетровськ-2015, с 3-12.

25.Международные договоры регионального характера в сфере прав человека. Закон и жизнь. (Международный научно-практический правовой журнал.) № 5 (279), Кишинэу-2015, с. 35-40.

26.Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla insan hüquqları sahəsində əməkdaşlığı. Qanun 06 (248), Bakı-2015, s. 26-31.

27.İnsan hüquqları sahəsində ikitərəfli beynəlxalq əməkdaşlıq Qanun 07 (249), Bakı-2015, s. 28-32.

28.İnsan hüquqları sahəsində universal xarakterli beynəlxalq sənədlərin hüquqi təbiəti. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi analitik və praktik jurnal) № 1 (41), Bakı-2015, s. 56-69.

29.Проблема сотрудничества международно и национального право в реализации международно-правовых норм в области прав человека. Law and politology (international scientific journal) № 30 June, Chisinau-2015, c. 14-17.

30.Vəkillik fəaliyyətinin insan hüquqlarının müdafiəsində rolu. Qanun 10 (252), Bakı-2015, s. 33-36.

31.İnsan hüquqları sahəsində İnsan hüquqları üzrə müvəkkilin (Ombudsmanın) fəaliyyəti. Qanun 11 (253), Bakı-2015, s. 3-7.

32.İnsan hüquqları sahəsində regional təşkilati mexanizmlərin xüsusiyyətləri./ "Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda beynəlxalq elmi-praktiki konfrans (5 may 2015-ci il), Bakı-2015, 1-ci cild, s. 15-21.

33.Azərbaycan Respublikası qanunvericiliyində insan hüquqları sahəsində beynəlxalq hüquq normalarına hüquqi qüvvə verilməsi problemi. / "Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları" mövzusunda 6-cı respublika elmi-nəzəri konfransın materialları (5-6 may 2016), Bakı-2016, s. 185-190.

34.Insan hüquqları sahəsində beynəlxalq normaların realizəsində məhkəmə hakimiyyətinin rolu. Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri № 64, Bakı-2016, s. 109-113.

35.Theoretical and practical issues of the implementation of international norms on human rights to the national legislation. İnternational journal of environmental and science education. Netherlands-2016, Vol.11, No12,5070-5085 www.ijese.net/makale/688.

36.İnsan hüquqlarının müdafiəsi sistemində beynəlxalq və dövlətdaxili təminat mexanizmləri: Nəzəri və praktiki problemlər. Monoqrafiya. Bakı-2017, 253 səh.

37.Criminalist features and exemplary parameters of Defense speech. The journal of Juristic Papyrology. Warszawa, Poland-2018, Volume 48, Issue 2, 2018, pp. 121-132.

# РЕЗЮМЕ

## Субхан Фармаил оглы Алиев

## Внутригосударственные механизмы обеспечения реализации международно-правовых норм в области прав человека

Диссертационная работа выполнена на основе сравнительного анализа обширной международной договорной практики, законодательств различных государств, включая Азербайджанскую Республику и существующих разногласий в правовой литературе. Диссертация состоит из введения, пяти глав, заключения и списка использованной литературы.

Во введении обоснована актуальность темы, указывается степень ее разработанности, научная новизна, цели и задачи, представленные к защите новые положения, теоретическое и практическое значение исследования.

Первая глава называется «Суть, характер и механизмы реализации норм международного права в сфере прав человека» и состоит из двух параграфов. В этой главе рассматриваются понятие и содержание реализации норм международного права в сфере прав человека, механизм защиты прав и свобод человека, проблема связи международного и внутригосударственного права по реализации норм международного права в сфере прав человека, сравнительный анализ практики зарубежных стран.

Вторая глава диссертационной работы называется «Международные нормативные механизмы (универсальные и региональные международные правовые акты) реализации норм международного права в сфере прав человека» и состоит из трех параграфов. Данная глава исследует международные документы универсального и регионального характера в сфере прав человека и двустороннее международное сотрудничество в сфере защиты прав человека на примере Азербайджанской Республики.

Третья глава диссертационной работы под названием «Международные организационные механизмы реализации международно-правовых норм в сфере защиты прав человека» состоит из четырех параграфов. В этой главе рассматриваются универсальные организационные механизмы ООН и его основные структуры в сфере прав человека, органы контроля исполнения универсальных международных договоров, специализированные учреждения ООН

проблема защиты прав человека и региональные организационные механизмы в Европе, Америке, СНГ и в Африке.

Четвертая глава диссертационной работы под названием «Деятельность государственных и негосударственных органов по реализации международно-правовых норм в сфере защиты прав человека» состоит из пяти параграфов. В этой главе рассматриваются внутригосударственные нормативно-правовые механизмы реализации норм международного права в сфере защиты прав человека, деятельность законодательной власти по реализации норм международного права в сфере прав человека, деятельность органов исполнительной власти в сфере прав человека по реализации норм международного права, роль органов судебной власти в реализации норм международного права в сфере прав человека, деятельность не правительственных органов по реализации норм международного права в сфере прав человека.

Пятая глава называется «Тенденция совершенствования в Азербайджанской Республике национального законодательства по реализации норм международного права в сфере прав человека» и состоит из двух параграфов. В этой главе рассматриваются теоретические и практические особенности имплементации норм международного права  в области прав человека в законодательство Азербайджанской Республики и совершенствование законодательства Азербайджанской Республики в сфере прав человека: проблемы учинения международно правовых стандартов.

В заключение представлены полученные в ходе исследования выводы и предложения, в том числе раскрыто их теоретико-практическое значение для международной и внутригосударственной нормативной правовой системы.

## SUMMARY

**Subhan Farmail Aliyev**

**Internal mechanisms for ensuring the implementation of the norms of international law in the field of human rights**

The dissertation was carried out on the basis of a comparative analysis of the extensive international contract practice, the legislation of various states, including the Republic of Azerbaijan and the existing disagreements in the legal literature. The dissertation consists of an introduction, five chapters, a conclusion and bibliografy.

In the introduction, the relevance of the topic is substantiated, the degree of its development, the scientific novelty, the aims and tasks presented to the defense of the new provisions, the theoretical and practical significance of the study are indicated.

The first chapter is called "Essence, nature and mechanisms for the implementation of international law in the field of human rights" and consists of two paragraphs. This chapter examines the concept and content of the implementation of international human rights law, the mechanism for the protection of human rights and freedoms, the problem of the relationship between international and domestic law in the implementation of international human rights law, and a comparative analysis of the practice of foreign countries.

The second chapter of the dissertation is called "International normative mechanisms (universal and regional international legal acts) of the implementation of international law in the field of human rights" and consists of three paragraphs. This chapter focuses on the problem of international documents of a universal character in the field of human rights, international agreements of a regional nature in the field of human rights and bilateral international cooperation in the field of human rights protection in the case of the Republic of Azerbaijan.

The third chapter of the dissertation, entitled "International Organizational Mechanisms for Implementing International Legal Norms in the Sphere of Human Rights Protection", consists of four paragraphs. This chapter examines the universal organizational mechanisms, the UN and its main structures in the field of human rights, the bodies controlling the implementation of universal international treaties, the specialized agencies of the United Nations and the problem of protecting human rights and regional institutional arrangements in Europe, America, the CIS and Africa.

The fourth chapter of the dissertation entitled "The activities of state and non-state bodies for the implementation of international legal norms in the field of human rights protection" consists of five paragraphs. This chapter examines the domestic legal and regulatory mechanisms for the implementation of international law in the field of human rights protection, the activities of the legislature to implement the norms of international law in the field of human rights, the activities of executive bodies in the field of human rights in implementing international law, the role of judicial authorities in the implementation of the norms of international law in the field of human rights, the activities of non-state bodies to implement the norms of international law in the sphere of human rights.

The fifth chapter is titled "The Trend of Improvement of National Legislation on Implementation of the Norms of International Law in the Sphere of Human Rights in the Republic of Azerbaijan" consists of two paragraphs. This chapter examines the theoretical and practical features of the implementation of the norms of international law in the field of human rights in the legislation of the Republic of Azerbaijan and the improvement of the legislation of the Republic of Azerbaijan in the field of human rights: the problems of international legal standards.

In conclusion, the conclusions and proposals received in the course of the study are presented, including their theoretical and practical significance for the international and intra-state normative legal system.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**СУБХАН ФАРМАИЛ оглы АЛИЕВ**

# ВНУТРИГОСУДАРСТВЕННЫЕ МЕХАНИЗМЫ ОБЕСПЕЧЕНИЯ РЕАЛИЗАЦИИ МЕЖДУНАРОДНО-ПРАВОВЫХ НОРМ В ОБЛАСТИ ПРАВ ЧЕЛОВЕКА

**Специальность: 5603.01-«Международное право; права человека»**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой
степени доктора юридических наук**

**БАКУ – 2018**